RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 28 (9773) 8 fevral 2025-ci il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Əhalinin rahatlığının və istirahətinin yüksək səviyyədə təşkili məqsədilə...

### Prezident İlham Əliyev Bakıda metronun "Gənclik" stansiyasının yaxınlığında yaradılan yeni parkın açılışında iştirak edib



→ 2

## Müstəqilliyin uğur formulu: qətiyyətli lider və qüdrətli dövlət



Prezident İlham Əliyevin gerçəkləşdirdiyi effektiv xarici siyasətin əsasında isə Azərbaycan xalqının maraqlarına əsaslanan tarazlı və güc mərkəzlərindən eyni məsafədə duran, öz müstəqilliyinə, potensialına və resurslarına arxalanan davamlı və sabit kurs durur. Rəsmi Bakının beynəlxalq hüquqa və prinsiplərə əsaslanan siyasəti ərazilərimizin bərpa edilməsindən sonra da dəyişməz qalır. Məhz bu səbəbdən dünya Azərbaycan Liderini sözübütöv və stabil tərəfdaş qismində qəbul edir. Bu amil fərqli dövlətlərin, iri maliyyə korporasiyalarının və transmilli şirkətlərin Azərbaycanla rahatlıqla işbirliyinə nail olmalarının başlıca səbəbidir.

Azərbaycan elə bir müstəqillik ölçüsünə nail olmuş dövlətdir ki, qlobal güclərin maraqları fonunda öz geosiyasətini müəyyən etməyə və suveren gündəmi ilə fəaliyyət göstərməyə başlayıb. Bu, bəlkə də kənardan çoxlarında inanılmaz təəssüratın formalaşmasına səbəb ola bilər, ancaq müstəqilliyi cəmi üç onilliyi əhatə edən dövlətin liderinin müasir dünya düzəni, formalaşan yeni qlobal geosiyasi reallıqlarda ölkəsinin hansı addımları atmalı olduğu barədə fikirlər bildirməsi tarixi nailiyyətdir. Prezident İlham Əliyevin yerli telekanallara verdiyi geniş müsahibəsində yeni dünya nizamında Azərbaycanın öz müstəqilliyinə və gücünə əsaslanan rolu barədə fikirləri dövlətimizin qlobal proseslərdəki mövqeyini aydın ehtiva edir: "Biz bu prosesin fəal iştirakçısı olmalıyıq. Biz, sadəcə olaraq, burada yeni nizamın necə olacağını gözləməməliyik. Biz öz işimizi görməliyik və gündəliyimizi bundan sonra da tətbiq etməliyik. Çünki Cənubi Qafqaz bizim regionumuzdur və Azərbaycan bu bölgənin aparıcı ölkəsi kimi, əlbəttə ki, məsuliyyət nöqteyi-nəzərindən də xüsusi çəkiyə malikdir. Ona görə yeni nizamı biz ədalətli nizam kimi görürük. Əgər bunu bir sözlə ifadə etmək mümkündürsə, bu, ədalətli olmalıdır və əslində, Azərbaycanın uzun illər apardığı siyasətə də uyğundur. Biz indi belə görürük, yəni suverenlik, müstəqillik, bir-birinin işlərinə qarışmamaq, müxtəlif bəhanələrlə ölkələrin daxili vəziyyətini gərginləşdirməmək. Bütün bunlar bizim, əslində, xarici siyasət xəttimizdir. Azərbaycan uzun illər bu siyasəti aparır". Daha sonra müsahibədə xüsusi vurğulandı ki, biz öz siyasətimizlə, sərmayə qoyuluşumuzla Cənubi Qafqazda faktiki olaraq, yeni nəqliyyat və energetika xəritəsini yaratmışıq. Bir tərəfimiz Xəzər üzərindən Orta Asiyaya uzanır, bir tərəfimiz Avropaya və bu böyük coğrafiyada Azərbaycan faktiki olaraq əvəzolunmaz ölkəyə çevrilir. Orta Asiya və Qərb dünyası ilə birləşmək, bağlantılar yaratmaq istəyən hər bir ölkə Azərbaycandan kənarda qala bilməz.

→ 5

## A.R.Əliyevin Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Anar Rəhim oğlu Əliyev Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2025-ci il*

## Azərbaycanla Ermənistan arasında itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsinə dair fikir mübadiləsi aparılıb

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar

**Dövlət Komissiyası**

Fevralın 7-də Azərbaycan-Ermənistan dövlət sərhədində Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və Ermənistan Respublikası Əsir düşmüş, saxlanılmış və itkin (yeri məlum olmayan) şəxslər üzrə idarələrarası komissiyasının nümayəndələri arasında görüş keçirilib.

Komissiyadan AZƏRTAC-a bildiriblər ki, görüşdə itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsinə dair fikir mübadiləsi aparılıb və komissiyalar arasında ikitərəfli əsasda müzakirələrin davam etdirilməsi barədə razılıq əldə olunub.



## Azərbaycanla şantaj dilində danışmaq mümkün deyil

Azərbaycanın təyyarənin vurulmasına görə haqlı tələbləri qarşısında cavab tapa bilməyən Rusiyada Dövlət Dumasının deputatlarının dili ilə bu ölkədə yaşayan və işləyən azərbaycanlılarla bağlı şantaj dolu fikirlər səsləndirilməyə başlanılıb. Məsələn, KİV-də yayılan məlumatlara əsasən, Dövlət Dumasının "Yedinaya Rossiya" Partiyasından olan deputatı Nikolay Valuyev Rusiyadakı Azərbaycan diaspor təşkilatlarının qapadılması, azərbaycanlıların biznesinin məhdudlaşdırılması, bu ölkə ərazisində qanuni yaşayan soydaşlarımızın hərbi uçota götürülməsi və cəbhəyə göndərilməsi kimi iddialarla çıxış edib.

Təxminən eynìməzmunlu fikirlərlə Dövlət Dumasının digər deputatları Yevgeni Popov və Andrey Pinçuk da çıxış edərək, sərsəm iddialar irəli sürüblər. Aydın məsələdir ki, bu təkliflərin heç biri onların beyninin məhsulu deyil. Bu adamlar yuxarıdan gələn təlimat və tezislər əsasında belə çıxışlar edirlər. Təyyarə ilə bağlı məsələdə günahını etiraf etmək istəməyən Rusiya həm də "Rossotrudniçestvo" Agentliyinin fəaliyyətinin dayandırılmasına görə şantaja keçib.

→ 4

## Ədalətin bərqərar olunması naminə

Erməni vandalları 1990-cı illərdə Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur torpaqlarını günahsız azərbaycanlıların qanına boyayanda, qoca, cavan, uşaq, əlil demədən, yalnız milli kimliklərinə görə insanlara divan tutanda, işgəncələr verəndə, qətliamlar, soyqırımları törədəndə nəinki bu həqiqəti yadlarına salmırdılar, hətta özlərini "qəhrəman", "qalib" hesab etdilər.

Otuz il Azərbaycan xalqını ən böyük mənəvi ağrılara məhkum etdilər. Xalqımız yalnız erməni quldurları tərəfindən vəhşicəsinə qətlə yetirilən, şikəst edilən soydaşlarımızın dərdlərini çəkmədi. Eyni zamanda Ermənistanın həmin illərdə işğal etdiyi iyirmi faiz ərazisindən nigaran yaşadı. Azərbaycan xalqı Qarabağda, Şərqi Zəngəzurda qəsbkar ermənilərin amansızlıqla uçurub dağıtdıqları, talan etdikləri, od vurub yandırdıqları, xarabalığa çevirdikləri yurdlarımızın həsrətini çəkdi.



→ 7



## Üzqarası USAID

İndi Amerikada kartlar yenidən dağıdılır. Bu ölkədəki siyasi təhlilçilərin fikrincə, indiyədək hakimiyyətdə kök salmış bir çox korrupsiya cinayətlərinin üstü açıla bilər. Onlar qeyd edirlər ki, bu təkcə USAID-lə bitməyəcək. Hərbi sənaye kompleksi ilə Pentaqon arasında da bir çox şübhəli məqamlar var. Bununla belə, USAID-in dünyada həyata keçirdiyi pozucu əməlləri, korrupsiya və suveren dövlətlərin daxili işlərinə kobud şəkildə müdaxilə etməsi beynəlxalq aləmdə müzakirə olunan əsas məsələlərdir. Əvvəllər  də USAID-in qanunsuz əməllərlə məşğul olması bəlli idi. Hətta bu barədə mətbuatda vaxtaşırı yazılar da dərc olunurdu. İndi isə bu işlə birbaşa Amerika dövləti məşğul olur və dəhşətli faktların üstü açılır.

İlon Maskın rəhbərlik etdiyi DOGE USAID-in məxfi sənədlərinə çıxış əldə edib. Maskın köməkçilərindən ibarət kiçik qrup Ronald Reyqan binasına gələrək agentliyin ofislərinə, o cümlədən məxfi məlumatların saxlanıldığı otağa girişin təmin edilməsini tələb edib. Yayılan məlumata görə, agentliyin ofisində qrupla binanın mühafizəçiləri arasında münaqişə yaranıb, onlar məxfi sənədlərin saxlanıldığı otağa girişə icazə vermək istəməyiblər.

→ 8

# Əhalinin rahatlığının və istirahətinin yüksək səviyyədə təşkili məqsədilə...

## Prezident İlham Əliyev Bakıda metronun "Gənclik" stansiyasının yaxınlığında yaradılan yeni parkın açılışında iştirak edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda metronun "Gənclik" stansiyasının yaxınlığında "Antena" sahəsi adlanan ərazidə yeni yaradılan parkın açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov yeni parkda yaradılan şərait barədə ətraflı məlumat verdi.

Paytaxtımızın daha da müasirləşdirilməsi, abadlaşdırılması istiqamətində görülən işlər yaşıllıq zolaqlarının və parkların salınması ilə paralel şəkildə davam etdirilir. Belə istirahət məkanlarından daha biri Azərbaycan Prezidentinin 2023-cü il 18 avqust və 2024-cü il 13 yanvar tarixli sərəncamlarına əsasən, Nərimanov rayonunda - metronun "Gənclik" stansiyasının yaxınlığında, Vaqif prospekti, Ceyhun Hacıbəyli, Şəmsi Rəhimov və Nəsib bəy Yusifbəyli küçələrinin kəsişməsində salınan yeni parkdır.

Dövlətimizin başçısı və birinci xanım parkda yaradılan şəraitlə tanış oldular.

"Antena" sahəsi kimi tanınan bu ərazidə yararsız vəziyyətdə olan bəzi tikililər söküləb. Söküntü işlərindən sonra parkın ərazisi daha da genişləndirilib və 19 hektara çatdırılıb.

Parkın ərazisindəki mövcud tarixi inzibati bina saxlanılıb və binada bərpa işləri aparılıb.

Yeni salınan parkda sakinlərin və qonaqların asudə vaxtlarının səmərəli təşkili üçün qısa müddətdə gözəl şərait yaradılıb. Belə ki, burada müasir tələblərə cavab verən iki restoran inşa olunub. Həmçinin burada fəvvarə də quraşdırılıb. Bu da istirahət məkanına əlavə gözəllik verir.







Müasir istirahət kompleksinin ərazisinin 14 hektarında yaşıllıq sahələri salınıb, 20 mindən çox ağac və kol əkilib. Parkda avtomat suvarma sistemi, su və yanğın çənləri, nasosxana, təhlükəsizlik müşahidə kameraları quraşdırılıb. Həmçinin işıqlandırma sistemi yeni layihə əsasında ən müasir standartlara uyğun şəkildə qurulub. Parkda piyada və velosiped yolları çəkilib, uşaq-əyləncə və açıq hava şəraitində müasir məşq qurğuları ilə təchiz edilmiş idman meydançaları yaradılıb.

Yeni parkla yaxınlıqdakı "Dədə Qorqud" parkını əlaqələndirən yeraltı keçid də inşa olunub. Bu da sakinlərin təhlükəsiz və rahat hərəkətinə şərait yaradır.

Son illər Azərbaycanın bütün regionlarında, o cümlədən Bakı şəhərində abadlıq və yenidənqurma işləri geniş vüsət alıb. Əhalinin rahatlığının və istirahətinin yüksək səviyyədə təşkili məqsədilə yeni parklar və çoxsaylı yaşıllıq zolaqları salınıb, mövcud park və xiyabanlar isə əsaslı şəkildə yenidən qurulub. Həyata keçirilən bu layihələr Bakının və regionların simasını dəyişməklə yanaşı, ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılmasında da mühüm rol oynayır.

Yeni istifadəyə verilən park da paytaxtımızın daha da gözəlləşməsi, şəhərdə yaşıl guşələrin sayının artırılması və insanların səmərəli istirahəti baxımından mühüm əhəmiyyət daşıyır.







# "Qarabağ Universitetinin Klinikası" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Qarabağ Universitetinin tabeliyində "Qarabağ Universitetinin Klinikası" publik hüquqi şəxs (bundan sonra - Klinika) yaradılsın.

2. Müəyyən edilsin ki, Klinika Qarabağ Universitetində tibb ixtisasları üzrə təhsil alan tələbələrin peşəkar kadr kimi hazırlanmasını təmin edən, tibb sahəsində elmi tədqiqatlar aparan, regionda əhalinin sağlamlığının qorunmasında iştirak edən publik hüquqi şəxsdir.

3. Klinikanın təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Prezidentinə:

3.1.1. Klinikanın yenidən təşkili və ləğv edilməsi;

3.2. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə:

3.2.1. bu Fərmanın 3.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi:

5.1. Klinikanın nizamnaməsini iki ay müddətində təsdiq etsin;

5.2. Klinikanın dövlət qeydiyyatına alınması üçün onun nizamnaməsi təsdiq edildikdən sonra 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

5.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli ilə bağlı zəruri tədbirlər görsün.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

6.1. Klinikanın 2025-ci ildə saxlanılma xərclərinin maliyyələşdirilməsi üçün "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 268 nömrəli Fərmanının 1.5.5.7-ci (Səhiyyə sahəsi üzrə sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi) abzasında nəzərdə tutulmuş vəsaitdən 5 (beş) milyon manatı Qarabağ Universitetinə ayırsın;

6.2. Klinika mərhələlərlə tam özünümaliyyələşdirmə səviyyəsinə çatanadək növbəti illərin dövlət büdcəsinin layihələrində Qarabağ Universitetinin fəaliyyətinin maliyyələşdirilməsinə ayrılacaq vəsaitlərdə Klinikanın saxlanılması xərcləri üçün zəruri maliyyə vəsaitinin nəzərdə tutulmasını təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2025-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında" 2016-cı il 6 oktyabr tarixli 1066 nömrəli Fərmanında və "Azərbaycan Respublikası tərəfindən 1995-ci il yanvarın 10-da təsdiq edilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim dəyişmələri üzrə çərçivə konvensiyasına uyğun Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər haqqında" 1997-ci il 30 aprel tarixli 560 nömrəli, "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 13 iyul tarixli 2199 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 oktyabr tarixli 1066 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1625 (Cild I) 1-ci hissəsində "Əli Əhmədov" sözləri "Samir Şərifov" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikası tərəfindən 1995-ci il yanvarın 10-da təsdiq edilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim dəyişmələri üzrə çərçivə konvensiyasına uyğun Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 30 aprel tarixli 560 nömrəli Sərəncamının 1-ci hissəsində "Əli Əhmədov" sözləri "Samir Şərifov" sözləri ilə əvəz edilsin.

3. "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 7, maddə 1288 (Cild I) 1-ci hissəsində "Azərbaycan Respublikası Baş nazirinin birinci müavini" sözləri "Samir Şərifov - Azərbaycan Respublikası Baş nazirinin müavini" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2025-ci il*

# A.R.Əliyevin Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Anar Rəhim oğlu Əliyev Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2025-ci il*

# Azərbaycandan Ukraynaya elektrik avadanlıqlarından ibarət növbəti humanitar yardım göndərilib

**Fevralın 7-də Azərbaycandan Ukraynaya növbəti humanitar yardım göndərilib. AZƏRTAC xəbər verir ki, elektrik avadanlıqlarından ibarət yük Sumqayıt Texnologiyalar Parkının ərazisindən yola salınıb.**

Qeyd edək ki, bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci il 5 fevral tarixli sərəncamına əsasən, Energetika Nazirliyinə 1 milyon ABŞ dollarının manat ekvivalentində vəsait ayrılıb.

Energetika Nazirliyinin şöbə müdiri Ələsgər Həsənov jurnalistlərə açıqlamasında bildirib ki, bu vəsait çərçivəsində göndərilən ilkin humanitar yardım yükünə elektrik kabelləri, naqillər və transformatorlar daxildir. Ukrayna tərəfindən daxil olmuş müraciətə əsasən, qeyd edilən təchizat müharibədən zərər çəkmiş ərazilərin elektrik enerjisi ilə dayanıqlı təchizatının bərpası üçün nəzərdə tutulur.




Ukraynanın Azərbaycandakı səfirliyinin iqtisadi məsələlər üzrə müşaviri Oleq Klınçenko qeyd edib ki, Ukrayna xalqı Azərbaycana və Prezident İlham Əliyevə növbəti humanitar yardıma görə minnətdarlığını bildirir: "Bu humanitar yardım, həqiqətən də, ukraynalıların həyatını xilas edir. Bundan başqa, bu yaxınlarda Davos Forumunda Prezident Volodimir Zelenski və Prezident İlham Əliyev arasında görüş oldu. Bu görüş dövlətlərarası strateji əməkdaşlığımızın və münasibətlərimizin yüksək səviyyədə olduğunu göstərir".

Onun sözlərinə görə, Azərbaycan və Ukrayna arasında iqtisadi əlaqələr bundan sonra da inkişaf edəcək. Xatırladaq ki, mövcud vəziyyətlə əlaqədar Azərbaycan tərəfindən Ukraynaya göstərilmiş yenidənqurma və humanitar məqsədli yardımların ümumi məbləği 40 milyon ABŞ dollarını keçib. 2025-ci ilədək elektrik avadanlıqları qismində 120-yə yaxın transformator və komplekt transformator məntəqəsi, 70-ə yaxın generator, habelə 3,3 milyon metrdən çox kabel və naqil Ukraynaya yola salınıb.

# Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev yeni vəzifəyə təyin olunmuş maliyyə nazirini kollektivə təqdim edib





**Fevralın 7-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyev yeni vəzifəyə təyin olunmuş maliyyə naziri Sahil Babayevi kollektivə təqdim edib.**

AZƏRTAC xəbər verir ki, təqdimat mərasimində çıxış edən Samir Nuriyev müstəqil Azərbaycan Respublikasında müasir maliyyə sisteminin formalaşması və inkişafının Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. 1990-cı illərin əvvəllərində Ulu Öndər yenidən hakimiyyətə qayıtdıqdan sonra bütün digər sahələrdə olduğu kimi, iqtisadiyyat və maliyyə sahəsində də sabitlik təmin edilib, həyata keçirilmiş ardıcıl və məqsədyönlü islahatlar nəticəsində dayanıqlı maliyyə sistemi yaradılıb.

Prezident Administrasiyasının rəhbəri deyib ki, Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan böyük inkişaf yolu keçib, aparılan iqtisadi islahatlar, şəffaflığın təmin edilməsi, investisiya iqliminin yaxşılaşdırılması nəticəsində sürətli iqtisadi artıma və dövlət maliyyəsinin səmərəli idarə edilməsinə nail olunub.

Azərbaycan Respublikasında maliyyə siyasətini həyata keçirən və dövlət maliyyəsinin idarə olunmasını təşkil edən orqan kimi Maliyyə Nazirliyinin fəaliyyətinin daim Azərbaycan Prezidenti İlham Əliyevin nəzarətində olduğunu bildirən Samir Nuriyev qurumun qarşısında duran vəzifələrlə bağlı dövlət başçısının tapşırıqlarını diqqətə çatdırıb, həmin vəzifələrin icrası üçün bütün imkanların səfərbər olunacağına ümid etdiyini bildirib, bu işdə yeni təyin olunmuş maliyyə nazirinə və bütün kollektivə uğurlar arzulayıb.

# Baş prokuror Zərdabda vətəndaşları qəbul edib

**Fevralın 7-də baş prokuror Kamran Əliyev Zərdab Rayon Prokurorluğunun inzibati binasında Zərdab, Ucar, Kürdəmir, Ağdaş, Ağcabədi, Bərdə rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.**



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, qəbuldan əvvəl baş prokuror Ümummilli Lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla anıb.

Qəbulda iştirak edən 46 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb. Eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq, işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.

# Kürdəmirdə rayon prokurorluğunun yeni inzibati binası istifadəyə verilib





**Fevralın 7-də Kürdəmir Rayon Prokurorluğunun yeni inzibati binası istifadəyə verilib.**

Açılış mərasimində Azərbaycan Respublikasının baş Prokuroru Kamran Əliyev iştirak edib. Baş Prokurorluğun rəhbərliyinin də iştirak etdiyi tədbirə həmçinin digər dövlət və hüquq-mühafizə orqanlarının əməkdaşları qatılıblar.

AZƏRTAC xəbər verir ki, əvvəlcə mərasim iştirakçıları yeni inzibati binanın foyesində Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq, dahi rəhbərin unudulmaz xatirəsinə dərin hörmət və ehtiramlarını bildiriblər.

Tədbiri açan baş prokuror Kamran Əliyev qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında başlanan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən hüquq islahatları və hərtərəfli dövlət dəstəyi nəticəsində milli prokurorluq orqanlarının bu gün dünya standartlarına uyğun fəaliyyəti təşkil olunub. Qeyd edilib ki, cəmiyyətdə özünəməxsus yer tutmaqla konstitusion statusa malik prokurorluq orqanları dövlət idarəetməsində mühüm əhəmiyyət daşıyır. Vurğulanıb ki, "Konstitusiya və Suverenlik İli"ndə prokurorluq orqanlarının yeni inzibati binasının istifadəyə verilməsi əlamətdar hadisədir.

Kamran Əliyev prokurorluq orqanlarında aparılan kompleks islahatlar və sağlam iş mühitinin formalaşdırılması məqsədilə görülən məqsədyönlü tədbirlərdən söz açıb.

Yeni binanın istifadəyə verilməsini prokurorluq əməkdaşlarının əməyinə verilən yüksək qiymət kimi dəyərləndirən baş prokuror Azərbaycan dövlətinin inkişafı naminə bundan sonra da böyük səylə çalışacaqlarını bildirərək kollektivə uğurlar arzu edib.

Sonra iştirakçılar Kürdəmir Rayon Prokurorluğu üçün yeni tikilmiş binada yaradılan şəraitlə tanış olublar.

Baş prokuror prokurorluq orqanlarının istifadəsinə verilmiş, müasir standartlara cavab verən və kriminalistik avadanlıqlarla təchiz olunmuş xidməti avtomobillərə baxış keçirib.

# Müstəqilliyimiz əbədidir: Gənclər Azərbaycanın gələcəyidir

**"Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin təkrar nəşrinin 4-cü kitabı çapdan çıxıb.**

AZƏRTAC xəbər verir ki, bu kitabda yer alan materiallar 1994-cü il avqustun 11-dən oktyabrın 3-dək olan dövrü əhatə edir. Kitaba Ulu Öndər Heydər Əliyevin çıxışları, nitqləri, bəyanatları, müraciətləri, müsahibləri, məktubları daxil edilib. Nəşrdəki materiallarda Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, hüquqi dövlət quruculuğu, demokratik yeniləşmə, iqtisadi islahatların aparılması, respublikamızın ərazi bütövlüyünün təmin olunması, daxili və xarici siyasətin başlıca istiqamətləri əksini tapıb. Həmin dövrdə Azərbaycanın iqtisadiyyatı keçid mərhələsini yaşayırdı, bu sahədə mövcud imkanlardan lazımınca istifadə edilmədiyi üçün irəliləyiş müşahidə olunmurdu. 1994-cü il avqustun 11-də respublika iqtisadiyyatının vəziyyətinə həsr olunmuş geniş müşavirədə nitq söyləyən Ulu Öndər Heydər Əliyev ölkənin iqtisadi potensialından səmərəli istifadə edilməsi ilə yaxşı nəticələrə nail olmağın mümkünlüyünü bildirərək deyib: "Azərbaycan Respublikasının iqtisadi potensialı, təbii sərvətləri, sənaye potensialı, infrastrukturu və digər imkanları çox zəngin, çox güclü, çox yüksək səviyyədədir. Əgər biz bütün bunlardan səmərəli istifadə etsək, yaxşı nəticələrə nail olarıq. Bu, bizim strateji yolumuzdur. Biz bu yolla getməliyik. Amma biz hər gün, hər ay, hər rüb və hər il yorulmadan çalışaraq respublikamızın iqtisadiyyatını inkişaf etdirməli və eyni zamanda adamları işlə təmin etməliyik, bunun nəticəsində maliyyə vəziyyətimizi yaxşılaşdırmalıyıq, vətəndaşlarımızın tələblərini, heç olmasa minimum tələblərini ödəməliyik və Azərbaycanı tədricən böhran vəziyyətindən çıxarmalıyıq".

Ulu Öndər Heydər Əliyev xalqımızın dini dəyərlərini yüksək qiymətləndirirdi. 1994-cü il avqustun 26-da Mövlud bayramı münasibətilə Bakıda Təzəpir məscidindəki mərasimdə çıxış edən Ümummilli Lider deyib: "İslam dini əsrlər boyu bizim mənəviyyatımızın əsasını təşkil etmiş, müsəlmanların dünyada layiqli yer tutmasını təmin etmişdir. Qurani-Kərimin kəlamları bu gün Azərbaycanda Allahın yolu ilə getməyimiz üçün məşəldir. Biz bu yolla gedirik və bundan sonra da gedəcəyik".

Ümummilli Lider Heydər Əliyevin çıxışları o dövrdə Azərbaycanın vəziyyəti haqqında dolğun təsəvvür yaradır: "Azərbaycan müharibə şəraitindədir. Müharibəni Azərbaycan başlamamışdır. Azərbaycanın torpaqlarına, onun suverenliyinə, ərazi bütövlüyünə Ermənistan təcavüz etmişdir. Beləliklə də Azərbaycan müharibəyə cəlb olunmuşdur. Təəssüflər olsun ki, 6 il davam edən müharibədə, müəyyən obyektiv və subyektiv səbəblərə görə, torpaqlarımızın bir qismi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, 1 milyondan artıq həmvətənimiz qaçqın vəziyyətinə düşmüşdür. Şübhəsiz ki, bu, Azərbaycanın sosial-iqtisadi vəziyyətinə ağır zərbə vurur. Ona görə də sənayemizdə görüləcək işlərin bir çoxunu vaxtında həyata keçirmək mümkün olmur, yaxud da sənaye istehsalında əldə edilən vəsaitin bir hissəsi onun inkişafına deyil, respublikanın müdafiəsinə yönəldilir. Bu da təbiidir. Biz Azərbaycanın müstəqilliyini, torpaqlarımızı qorumalı, respublikamızın ərazi bütövlüyünə nail olmalıyıq. Ona görə də müharibənin əzab-əziyyətinə dözməliyik".




Müasir müstəqil Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin əsasının qoyulması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dahi rəhbər gənclərlə, o cümlədən ali məktəblərə qəbul olmuş birinci kurs tələbələri ilə görüşür, onlara tövsiyələrini verirdi. Ulu Öndər çıxışlarında gənc nəslin Azərbaycanın gələcəyi olmasını vurğulayaraq deyirdi: "Gənc nəsil gəlir. Bu, Azərbaycanın gələcəyidir. Ali məktəblərə daxil olan gənclər Azərbaycanın elmini, mədəniyyətini, iqtisadiyyatını, ictimai-sosial həyatını inkişaf etdirəcək yeni nəslin bir dəstəsidir. Bu gənclərin qeydinə qalmaq, onlara qayğıkeş münasibət göstərmək, başlıcası isə yaxşı təhsil vermək, ali məktəblərdə mənəvi mühiti möhkəmləndirmək, gənclərimizi gələcəkdə müstəqil həyatda sərbəst və layiqincə çalışmağa hazırlamaq - bunlar ali məktəblərin professor və müəllim heyətinin, bütün ali məktəb işçilərinin müqəddəs vəzifəsidir".

Oxucu bütün bu çıxışların mətnləri ilə çoxcildliyin 4-cü kitabında tanış ola bilər.

Kitabın buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarovdur.

Nəşrin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunub.

# Xarici İşlər Nazirliyinin 2025-ci il üzrə əsas prioritetləri müzakirə olunub

**Fevralın 7-də Xarici İşlər Nazirliyində nazir Ceyhun Bayramovun rəhbərliyi ilə geniştərkibli kollegiya iclası keçirilib.**



Nazirliyin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, iclasda Xarici İşlər Nazirliyinin rəhbər heyəti və struktur bölmə rəhbərləri iştirak ediblər.

Kollegiyanın iclası zamanı Azərbaycan Prezidentinin müəyyənləşdirdiyi xarici siyasət xəttinə uyğun olaraq 2024-cü il üzrə Xarici İşlər Nazirliyi tərəfindən görülən işlər, 2025-ci il üzrə əsas prioritetlər, ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, iqtisadi, iqlim və humanitar diplomatiya, beynəlxalq yardım səyləri, postmünaqişə dövründə diplomatik fəaliyyət, xaricdə Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının qorunması üzrə işlər, eyni zamanda Xarici İşlər Nazirliyinin fəaliyyətinin təşkili məsələləri müzakirə olunub, müvafiq tapşırıqlar verilib.

# Azərbaycanla Slovakiya arasında ilk konsulluq məsləhətləşmələri keçirilib

**Bakı şəhərində Azərbaycanla Slovakiya arasında ilk konsulluq məsləhətləşmələri keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, Azərbaycan nümayəndə heyətinə Xarici İşlər Nazirliyinin Konsulluq idarəsinin rəisi Emil Səfərov, Slovakiya nümayəndə heyətinə isə bu ölkənin Xarici və Avropa İşləri Nazirliyinin Konsulluq departamentinin direktoru Martin Barton rəhbərlik edib.

Məsləhətləşmədə həmçinin hər iki tərəfin xarici işlər orqanlarının müvafiq idarələrinin əməkdaşları, Azərbaycan Dövlət Miqrasiya Xidmətinin rəsmisi və Slovakiyanın Azərbaycandakı səfirliyinin nümayəndələri iştirak ediblər.

Məsləhətləşmələr zamanı konsulluq sahəsi üzrə iki ölkə arasında əlaqələrin hazırkı vəziyyəti və perspektivləri, bu sahədə ikitərəfli müqavilə-hüquq bazasının genişləndirilməsi imkanları müzakirə edilib.

Bundan əlavə, hər iki ölkənin vətəndaşlarının hüquq və qanuni mənafelərinin qorunması istiqamətində effektiv və çevik konsulluq yardımın göstərilməsi sahəsində əməkdaşlığın genişləndirilməsi məsələlərinə toxunulub, Slovakiyanın və Azərbaycanın viza siyasəti barəsində fikir mübadiləsi aparılıb.

Azərbaycan ilə Slovakiya arasında miqrasiya, əmək, sosial müdafiə və digər sahələrdə əməkdaşlığın inkişafı üçün bir sıra təkliflər müzakirə edilib, müvafiq istiqamətlər üzrə əlaqələrin genişləndirilməsi məqsədilə zəruri tədbirlərin görülməsinə dair razılıq ifadə olunub.

# Daxili işlər naziri Vilayət Eyvazov növbəti vətəndaş qəbulu və sıra baxışı keçirib

**Prezident İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov fevralın 6-da və 7-də Qusar Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**





Nazir əvvəlcə Qusar rayonundakı Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Qusar Rayon Polis Şöbəsində Qusar, Quba, Xaçmaz, Şabran, Siyəzən, Xızı şəhər və rayonlarından qəbula gələn 335 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Daxili işlər naziri general-polkovnik V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Vətən müharibəsinin 34 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 263 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

*"Azərbaycan"*

# Azərbaycanla şantaj dilində danışmaq mümkün deyil

**"Azərbaycan Hava Yolları"na məxsus "Embraer-190" tipli sərnişin təyyarəsinin Rusiya hava məkanında vurulması və bu səbəbdən qəzaya uğraması artıq faktlarla öz təsdiqini tapıb. Bu barədə açıqlanan ilkin hesabatda yer alan sübutlar, hava gəmisinin füzelyajında çoxsaylı dəlib keçən və kor zədələrin olması təyyarənin vurulduğunu aydın şəkildə təsdiq edir.**







Lakin təəssüflə qeyd olunmalıdır ki, Rusiya bunu etiraf etmək və bu cür halların ümumi tələbinə uyğun davranış ortaya qoymaq əvəzinə şantaj yolunu seçib. Söhbət ondan gedir ki, Azərbaycanın təyyarənin vurulmasına görə haqlı tələbləri qarşısında cavab tapa bilməyən Rusiyada Dövlət Dumasının deputatlarının dili ilə bu ölkədə yaşayan və işləyən azərbaycanlılarla bağlı şantaj dolu fikirlər səsləndirilməyə başlanılıb. Məsələn, KİV-də yayılan məlumatlara əsasən, Dövlət Dumasının "Yedinaya Rossiya" Partiyasından olan deputatı Nikolay Valuyev Rusiyadakı Azərbaycan diaspor təşkilatlarının qapadılması, azərbaycanlıların biznesinin məhdudlaşdırılması, bu ölkə ərazisində qanuni yaşayan soydaşlarımızın hərbi uçota götürülməsi və cəbhəyə göndərilməsi kimi iddialarla çıxış edib.

Təxminən eyniməzmunlu fikirlərlə Dövlət Dumasının digər deputatları Yevgeni Popov və Andrey Pinçuk da çıxış edərək sərsəm iddialar irəli sürüblər. Aydın məsələdir ki, bu təkliflərin heç biri onların beyninin məhsulu deyil. Bu adamlar yuxarıdan gələn təlimat və tezislər əsasında belə çıxışlar edirlər. Təyyarə ilə bağlı məsələdə günahını etiraf etmək istəməyən Rusiya həm də "Rossotrudniçestvo" Agentliyinin fəaliyyətinin dayandırılmasına görə şantaja keçib.

Bu o Rusiyadır ki, hələ ötən əsrin 90-cı illərinin əvvəllərində torpaqlarımızın Ermənistan tərəfindən işğalında birbaşa rol oynamışdı. Rusiyanın hərbi dəstəyi olmasaydı, Ermənistan Azərbaycan ərazilərini işğal edə bilməzdi. Hardaydı ermənidə o güc ki, torpaqlarımızı işğal etsin. Üstəlik, Rusiyanın hər zaman Ermənistana hərbi yardım etdiyi də faktlarla sübuta yetirilib. Bu ölkə müharibə cəlladları olan R.Koçaryan və S.Sarqsyanın prezidentlikləri dövründə hər zaman onlara dəstək verib.

Vətən müharibəsi günlərində də Rusiyanın Ermənistana hərbi dəstək göstərdiyi məlum idi. Rusiyadan Ermənistana hərbi sursat aparan təyyarələrin marşrutu da o zaman deşifrə olunmuşdu. Hətta sərnişin təyyarələrində Rusiyadan Ermənistana silah daşınırdı. Və əgər Rusiya olmasaydı, Azərbaycan Qarabağdakı erməni separatizmini elə Vətən müharibəsi dövründə məhv edərdi. Vətən müharibəsindən sonra Rusiya sülhməramlılarının Qarabağda təxribatçı fəaliyyətlə məşğul olduqları, Ermənistandan ərazilərimizə silah daşınmasına kömək etmələri, separatçıların "bayrağını" qaldırmaları, "rus icması" yaratmaları unudulmayıb.

Bütün bunları edən Rusiya AZAL-a məxsus təyyarəni vurmasına görə günahını boynuna alıb üzr istəmək əvəzinə şantajçı simasını ortaya qoyur, Azərbaycanın haqlı tələblərinə görə ölkəmizi şantaj edir. Amma unudur ki, yürütdüyü elə bu cür siyasətin nəticəsi olaraq dostlarını və müttəfiqlərini itirir. Bu ölkənin rəsmiləri anlamalıdırlar ki, dünya əvvəlki dünya deyil və heç bir dövlət Rusiyanın təhdidləri, şantajları qarşısında geri çəkilmir.

Rusiyanın bu cür qeyri-adekvat, qonşuluq və müttəfiqlik prinsipləri ilə ziddiyət yaradan davranışlarını Azərbaycan da heç vaxt qəbul etməyəcək. Azərbaycanla şantaj dilində danışmaq mümkün deyil və ölkəmiz prinsipial və qətiyyətli mövqeyindən bundan sonra da çəkinməyəcək.

***Rəşad CƏFƏRLİ,***
*"Azərbaycan"*

# Müstəqilliyin uğur formulu: qətiyyətli lider və qüdrətli dövlət



**Böyük güclərin toqquşan maraqları səbəbindən bu gün bir çox ölkələrin mürəkkəb çağırışlarla üz-üzə qaldıqları müasir dünyamızda Azərbaycan bütün çətinliklərə baxmayaraq, strateji inkişaf yoluna davam edir, müstəqillik dövründə qazandığı nailiyyətləri möhkəmləndirərək onların sırasını yeni uğurlarla daha da genişləndirir. Bunun təməlində dayanan əsas amil Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yürütdüyü müstəqil siyasətdir. Dövlət rəhbərimizin həyata keçirdiyi bu siyasət bir neçə mühüm prinsipə əsaslanır. Həmin prinsiplər Azərbaycanın uzun illərin mübarizəsindən sonra nail olduğu ərazi bütövlüyünü, suverenliyini qorumaq, beynəlxalq arenada balanslı davranmaq, milli maraqlara əsaslanan xarici və daxili siyasət yürütmək strategiyasından ibarətdir. Bu strategiyanın bir çox məqamları, Azərbaycan dövlətinin müstəqil siyasət prioritetləri ilə Prezident İlham Əliyevin son aylarda yerli və xarici mediaya müsahibələrində də ətraflı tanış olmaq mümkündür.**

Dövlətimizin başçısının siyasətində milli maraqlar əsas yer tutur. Bu, xüsusilə ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin təmin olunması məsələsində özünü göstərir. 2020-ci ildə Vətən müharibəsində əldə edilmiş qələbə və 2023-cü ilin sentyabrında aparılan qısamüddətli antiterror tədbirləri nəticəsində Qarabağın tam şəkildə azad olunması və Azərbaycanın suverenliyinin bərpası bu siyasətin möhtəşəm nəticəsidir.

## Bölgədə sülhün təminatçısı

Geostrateji maraqların kəsişdiyi kifayət qədər mürəkkəb coğrafiyada yerləşmiş Azərbaycan heç bir siyasi konfiqurasiyada tərəf olmamaq üçün başqa ölkələrlə və beynəlxalq təşkilatlarla müstəqil, tarazlı xarici siyasət xəttinə üstünlük verir. Ölkəmiz NATO üzvü olan Türkiyə ilə strateji tərəfdaşlıq əlaqələrinə malikdir. Azərbaycan Türk Dövlətləri Təşkilatı çərçivəsində fəal iştirak edir, Türkiyə ilə strateji müttəfiqlik münasibətləri və digər türk dövlətləri ilə əməkdaşlığın gücləndirilməsi Prezident İlham Əliyevin siyasətində xüsusi yer tutur. Eyni zamanda Azərbaycan digər qonşularla da bərabərhüquqlu normal münasibətləri davam etdirir. Bu siyasət həm enerji məsələlərində, həm geosiyasi baxımdan, həm də iqtisadi-ticari əlaqələrdə ölkəmizə mühüm üstünlüklər qazandırır.

Azərbaycanın həyata keçirdiyi müstəqil siyasətdə regional sülh və təhlükəsizlik təşəbbüsləri çox mühüm rol oynayır. Prezident İlham Əliyev bir çox müsahibələrində Cənubi Qafqazda sabitliyin təmin edilməsində Azərbaycanın fəal rolunu qeyd edir. Ölkəmizin yürütdüyü müstəqil siyasət xətti yerləşdiyimiz bölgədə təhlükəsizlik, qarşılıqlı əməkdaşlıq, dayanıqlı inkişaf mühitinin təmin olunması üçün çox mühümdür. Çünki ölkəmizin gücü, beynəlxalq aləmdəki yüksək nüfuzü, eyni zamanda dövlətimizin rəhbəri İlham Əliyevin müasir dünya siyasətindəki mötəbər mövqeyi Cənubu Qafqazda xarici maraqların uzlaşdırılmasında, yeni qarşıdurma cəhdlərinin dəf edilməsində həlledici rol oynayır. Bu baxımdan, Ermənistanın regionumuzda yaranmış reallıqları qəbul etməsi, özünü yeni perspektivlərə hazırlaması, Azərbaycanın müvafiq şərtlərini qəbul edərək sülh müqaviləsini imzalaması vacibdir. Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin təmin olunmasından sonra Ermənistanla daimi sülhün əldə olunması Cənubi Qafqazda dayanıqlı sülhə töhfə verəcək.

## Azərbaycan və yeni dünya nizamı

Prezident İlham Əliyevin gerçəkləşdirdiyi effektiv xarici siyasətin əsasında isə Azərbaycan xalqının maraqlarına əsaslanan tarazlı və güc mərkəzlərindən eyni məsafədə duran, öz müstəqilliyinə, potensialına və resurslarına arxalanan davamlı və sabit kurs durur. Rəsmi Bakının beynəlxalq hüquqa və prinsiplərə əsaslanan siyasəti ərazilərimizin bərpa edilməsindən sonra da dəyişməz qalır. Məhz bu səbəbdən dünya Azərbaycan Liderini sözübütöv və stabil tərəfdaş qismində qəbul edir. Bu amil fərqli dövlətlərin, iri maliyyə korporasiyalarının və transmilli şirkətlərin Azərbaycanla rahatlıqla işbirliyinə nail olmalarının başlıca səbəbidir.

Azərbaycan elə bir müstəqillik ölçüsünə nail olmuş dövlətdir ki, qlobal güclərin maraqları fonunda öz geosiyasətini müəyyən etməyə və suveren gündəmi ilə fəaliyyət göstərməyə başlayıb. Bu, bəlkə də kənardan çoxlarında inanılmaz təəssüratın formalaşmasına səbəb ola bilər, ancaq müstəqilliyi cəmi üç onilliyi əhatə edən dövlətin liderinin müasir dünya düzəni, formalaşan yeni qlobal geosiyasi reallıqlarda ölkəsinin hansı addımları atmalı olduğu barədə fikirlər bildirməsi tarixi nailiyyətdir. Prezident İlham Əliyevin yerli telekanallara verdiyi geniş müsahibəsində yeni dünya nizamında Azərbaycanın öz müstəqilliyinə və gücünə əsaslanan rolu barədə fikirləri dövlətimizin qlobal proseslərdəki mövqeyini aydın ehtiva edir: "Biz bu prosesin fəal iştirakçısı olmalıyıq. Biz, sadəcə olaraq, burada yeni nizamın necə olacağını gözləməməliyik. Biz öz işimizi görməliyik və gündəliyimizi bundan sonra da tətbiq etməliyik. Çünki Cənubi Qafqaz bizim regionumuzdur və Azərbaycan bu bölgənin aparıcı ölkəsi kimi, əlbəttə ki, məsuliyyət nöqteyi-nəzərindən də xüsusi çəkiyə malikdir. Ona görə yeni nizamı biz ədalətli nizam kimi görürük. Əgər bunu bir sözlə ifadə etmək mümkündürsə, bu, ədalətli olmalıdır və əslində, Azərbaycanın uzun illər apardığı siyasətə də uyğundur. Biz indi belə görürük, yəni suverenlik, müstəqillik, bir-birinin işlərinə qarışmamaq, müxtəlif bəhanələrlə ölkələrin daxili vəziyyətini gərginləşdirməmək. Bütün bunlar bizim, əslində, xarici siyasət xəttimizdir. Azərbaycan uzun illər bu siyasəti aparır". Daha sonra müsahibədə xüsusi vurğulandı ki, biz öz siyasətimizlə, sərmayə qoyuluşumuzla Cənubi Qafqazda faktiki olaraq, yeni nəqliyyat və energetika xəritəsini yaratmışıq. Bir tərəfimiz Xəzər üzərindən Orta Asiyaya uzanır, bir tərəfimiz Avropaya və bu böyük coğrafiyada Azərbaycan faktiki olaraq əvəzolunmaz ölkəyə çevrilir. Orta Asiya və Qərb dünyası ilə birləşmək, bağlantılar yaratmaq istəyən hər bir ölkə Azərbaycandan kənarda qala bilməz.

Dövlətimizin başçısı hesab edir ki, ölkəmizin bu addımları dünya tərəfindən ciddi şəkildə izlənilir və təhlil edilir. Çünki dünya tarixində öz ərazi bütövlüyünü öz gücü ilə bərpa edən ikinci ölkə olmayıb. Bütün təzyiqlərə, təhdidlərə və təhlükələrə baxmayaraq, bunu biz etmişik: "Müstəqil siyasət aparmaq iqtidarında olan ölkələrin sayı da o qədər də çox deyil... Baxın Avropa ölkələrinə, onlar güc mərkəzlərindən nə qədər asılıdır və bəzən başqa faktorlardan. Ona görə müstəqil siyasət aparmaq iqtidarında olan ölkələr çox deyil. Ona görə bizim bu sahədəki siyasətimiz haqlı olaraq bizə rəğbəti daha da artırır və mən əminəm ki, yeni dünya nizamı tam formalaşma prosesinə düşəndə, o cümlədən Azərbaycanın mövqeyi də nəzərə alınacaq, ən azı Cənubi Qafqazda və Xəzər hövzəsində və biz buna hazır olmalıyıq".

Azərbaycan Prezidentinin həyata keçirdiyi müstəqil xarici siyasətin ən vacib istiqamətlərindən biri kənar qüvvələrin dövlətimizin daxili işlərinə qarışaraq öz geosiyasi hədəflərinə nail olmaq istəklərinin qarşısını qətiyyətlə almaqdır. Xalqların firavan həyatının əsasını təşkil edən yeganə yol dövlət başçısının fikrincə dövlətlərin bir-birilərinin daxili həyatına qarışmamasından keçir. Azərbaycan lideri hesab edir ki, "Əgər hər bir ölkə öz daxili işləri ilə məşğul olsa, onda nə müharibə olacaq, nə münaqişə olacaq, nə qarşıdurma olacaq. Hərə öz sərhədləri çərçivəsində öz işi ilə məşğul olsun və başqa ölkələrin daxili işlərinə qarışmasın".

Obyektiv reallıqdır ki, müasir dünyada heç də bütün dövlətlər bu fəlsəfədən irəli gələn siyasi kursa riayət etmirlər və onların mövcudluğunun əsasında duran tarixi hegemonluqlarını təmin etmək istəyinin əsasında məhz başqalarının daxili işlərinə müdaxilə yolu ilə üstünlük əldə etmək məntiqi durur. Prezident İlham Əliyev belə cəhdləri müstəqillik üçün ən ciddi maneələrdən biri hesab edir: "Tarixən imperialist qüvvələr "böl və hökm sür" prinsipi ilə yanaşmışlar, müstəmləkələri tamamilə idarə edərək onların bütün sərvətlərini oğurlayıb özləri üçün dövlətlər qurmuşlar. Amma buna son qoyulmalıdır və müstəmləkəçilik kimi iyrənc praktikaya son qoyulmalıdır və hesab edirəm ki, yeni dünya nizamında bu məsələ də nəzərə alınacaq. Ancaq mən daha çox hesab edirəm ki, ölkələrin suverenliyi toxunulmaz olmalıdır və qorunmalıdır, heç kim heç kimin işinə qarışmamalıdır. Biz buna nail ola bilmişik. Bizim işimizə heç kim qarışa bilməz. Cəhdlər olub? Bəli, olub. Olacaq? Yəqin ki, olacaq. Nəticə olub? Yox və olmayacaq. Amma gözümüzün önündə olan bir çox ölkələr xarici müdaxiləyə məruz qalırlar və bu, o ölkələrin mənəvi və genetik kodunu da faktiki olaraq sarsıdır. Zəif ölkələrə yad dəyərlər, mənfi dəyərlər aşılanır. Zəif deyəndə, ölkə zəif ola bilməz. Liderlər əgər zəifdirlərsə, onda ölkə zəif sayılır. Ona görə biz bu işə öz gündəliyimizlə hazırıq, gündəliyimiz də var. Yəni ki, bizim siyasətimiz artıq bunu göstərir".

## Qlobal çağırışlar

Bir dövlətin əsl müstəqilliyi onun təhlükəsizliyinə xələl gətirən, xalqının mənafelərinə zərər vura biləcək amilləri neytrallaşdırmaq bacarığından irəli gəlir. Ancaq müstəqillik təkcə müdafiə olunmaqdan ibarət deyil. Əsl suveren xarici siyasət həm də dövlətin öz maraqlarını ehtiva edən xəttini formalaşdıra bilmək bacarığıdır. Azərbaycanın sərgilədiyi siyasi kurs onun dünya arenasında digərlərinin maraqlarını nəzərə almaqla siyasətini quran dövlət statusunun çərçivələrini aşaraq öz gündəmini müəyyən edə bilməsindən ibarətdir. Azərbaycan bu gün böyük nailiyyətlərə imza atır. Hazırkı dünyada bu, olduqca nadir hallarda rastlaşılan nümunədir. İmperiyanın caynaqlarından cəmi üç onillikdir ki, qurtulmuş bir xalqın qurduğu dövlət qlobal problemlərin həlli prosesinə, yaxud dünya tarixinin acı və təəssüf doğuran səhifələri olan müstəmləkəçiliyin fəsadlarının aradan qaldırılmasına öz töhfəsini verir. Bakıda uğurla keçirilmiş və böyük nəticələrə səbəb olan COP29 Azərbaycan üçün yalnız evsahibliyi ilə yadda qalmamışdır. Belə ki, rəsmi Bakı, əslində, dünya güclərinin həll etməli olduqları problemlərə dair öz təklifləri ilə çıxış etmişdir. Bu fakt dövlətimizin dünya imici və nüfuzuna əlavə çalar qatmışdır. Prezident İlham Əliyevin Bakıda baş tutan qlobal sammitə verdiyi bu qiymət - "Bizim üçün COP29 böyük bir çağırış və böyük imkan idi. Bizim vəzifəmiz bu çağırışı uğura çevirməkdən ibarət idi" sözləri bu miqyasda qlobal məsuliyyəti üzərinə götürmüş və onun öhdəsindən şərəflə gəlmiş Azərbaycanın gerçək müstəqilliyinin danılmaz sübutudur. Bunu ölkəmizin qlobal konfransda irəli sürdüyü təşəbbüslər də sübut edir: "Mən bunu bir daha çox böyük uğur adlandırardım. Bizim üçün daha bir mühüm amil ölkənin təqdimatı idi. Bizim regionda hələ buna bənzər, bu qədər qonağın iştirak etdiyi ikinci belə tədbir keçirilməyib".

Azərbaycanın xarici siyasətini ehtiva edən digər mühüm amil XXI əsrin reallıqları baxımından tarixi utanc olan neokolonializmlə mübarizə aparan kiçik xalqlara verdiyi mənəvi dəstəkdir. Yüzillər boyu xalqları istibdad altında saxlayıb onlara məxsus təbii ehtiyatları və zənginlikləri qəsb və istismar edən dövlətlərin siyasətini tənqid etmək müasir həyatımızın başlıca trendi olan insan haqlarının təntənəsi üçün atılan qətiyyətli addımdır ki, heç də bütün dövlətlər belə bir iradəni nümayiş etdirməyə qadir deyillər.

## Ədalət uğrunda

Burada bir fakt da qeyd olunmalıdır ki, Ermənistanın Qərbi Azərbaycandan deportasiya etdiyi azərbaycanlıların öz tarixi torpaqlarına qayıtmaq hüququnun təmin olunması mühüm məsələdir. Onların bu hüququnun qorunması, Qərbi Azərbaycandan olan soydaşlarımızın öz ata-baba yurdlarına dönüşü sülh proseslərinə müsbət təsir göstərəcəkdir. Dövlətimizin başçısı bu məqamı müsahibələrində də həssas məsələlərdən biri kimi diqqətdə saxlayır, ölkəmizin bununla bağlı mövqeyini aydın şəkildə nəzərə çatdırır.

Azərbaycanın hər hansı ölkənin beynəlxalq yurisdiksiya ilə tanınmış ərazilərində gözü yoxdur. Dövlətimizin həyata keçirdiyi müstəqil siyasətin, atdığı addımların hər bir məqamı beynəlxalq normalara, ədalətə əsaslanır. Azərbaycan beynəlxalq hüququn əsas prinsiplərinə hörmətlə yanaşaraq bu çərçivədə hərəkət edir. Azərbaycan Vətən müharibəsindəki qələbəsi ilə BMT-nin illərlə havadan asılı qalan 4 qətnaməsini özü, ordumuzun gücü ilə icra etdi. İşğalçı qüvvələri suveren ərazilərimizdən qovub çıxardı. Bununla böyük bir ədalətsizliyə son qoydu.

Qərbi Azərbaycandan deportasiya edilmiş soydaşlarımıza qarşı da çox böyük ədalətsizlik olub. Bu hal aradan qaldırılmalı, onların öz doğma yurdlarına təhlükəsiz qayıdışı təmin edilməlidir. Hazırda bu, Ermənistanın beynəlxalq hüquq normalarına əməl etmək, regionda əbədi sülhə nail olmaq üçün görməli olduğu əsas işlərdən biridir.

Əfsuslar olsun ki, Ermənistan bununla bağlı hüquqi və mənəvi öhdəliklərini yerinə yetirmək əvəzinə, havadarı kimi çıxış edən bəzi ölkələrin dəstəyi ilə silah tədarükünü davam etdirməkdədir. Ermənistanın yeni silahlanma tədbirləri ilə Azərbaycan və ümumən regionumuzun təhlükəsizliyi ilə bağlı yaratdığı yeni təhdidlər ölkəmiz üçün son dərəcə prinsipial məsələdir. Azərbaycan Prezidenti beynəlxalq münasibətlərdə qətiyyətli mövqeyini ortaya qoyaraq bəzi Qərb ölkələrinin Ermənistana silah tədarükünü yolverilməz adlandırır. Azərbaycanın təhlükəsizliyinə təhdid yaradan bu cür addımlara qarşı sərt mövqe sərgiləyir.

Ölkəmiz bununla Cənubi Qafqazda sülhün və sabitliyin əsas təminatçısı mövqeyindən çıxış edir. Çünki regionun lider ölkəsi, əsas söz sahibi kimi bu prinsipial mövqeyi kimsədən çəkinmədən nümayiş etdirmək, öz maraqlarına görə yenidən bölgəmizi qanlı qarşıdurmalar meydanına çevirmək istəyənləri ifşa edib öz yerlərini göstərmək məhz Azərbaycanın missiyasıdır. Ermənistanla münasibətlərin normallaşdırılması meyilləri, regional əməkdaşlıq təşəbbüsləri və Zəngəzur dəhlizinin açılması istiqamətində aparılan fəal işlər də bu prinsipin təzahürüdür, dayanıqlı, əbədi sülhə doğru atılan addımlardır.

Ümumən, Azərbaycanın tutduğu yolun əsas prioriteti dövlətin müstəqilliyini qorumaq və heç bir xarici gücün təsiri altına düşməməkdir. Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, Azərbaycan öz qərarlarını müstəqil şəkildə qəbul edir və xarici təzyiqlərə boyun əymir. Bu sadəcə bəyanat deyil, ölkə rəhbərliyinin son onilliklərdə həyata keçirdiyi siyasəti diqqətlə izləyən hər kəsin müşahidə etdiyi tarixi reallıqdır.

Prezident İlham Əliyev ölkəmizin sülhpərvər mövqeyi, bu istiqamətdə həyata keçirdiyi tarixi missiya ilə yanaşı, Azərbaycanın hərbi gücünün artırılmasını da prioritet hesab edir. Vətən müharibəsindəki tarixi qələbəmizdən sonra da bu istiqamətdə işlər davam etdirilir, Azərbaycan Silahlı Qüvvələri ən müasir texnologiyalarla təchiz olunur, daha da gücləndirilir.

Dövlətimizin müstəqilliyini möhkəmləndirmək və dünyadakı mənafelərini daha rəşadətlə qoruyub təmin etmək istiqamətindəki çalışmaları daim davam edəcək. Bunun üçün tələb olunan bütün resurslar mövcuddur - müdrik xarici siyasət, güclü iqtisadiyyat, xalqın dövləti ilə birliyi və qətiyyətli Lideri. Prezident İlham Əliyevin dediyi kimi, dövlətlər zəif olmur, onların rəhbərləri zəif olur. Qələbə qazanmaq bacarığı isə yalnız güclü lideri olan dövlətlərə və xalqlara nəsib ola bilər!

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Qərbi azərbaycanlılar doğma yurda qayıdışı səbirsizliklə gözləyirlər

**Qərbi Azərbaycandan, yəni indiki Ermənistan adlandırılan ərazilərdən didərgin salınmış azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə geri qayıdışını təmin etmək məsələsini qarşıya qoyan Qərbi Azərbaycan İcması o yerlərdəki tarixi mədəni abidələrin, məhəllələrin taleyi ilə maraqlanır, həm də vaxtilə elindən-obasından zorla köçürülmüş, deportasiyaya məruz qalmış ailələrin nümayəndələri, ən nəhayət, varisləri ilə görüşür. Tarixin gizli və qaranlıq səhifələrinə aydınlıq gətirir.**

Qərbi Azərbaycan ərazilərinin folkloru, toponimləri, kəndləri, yer adları, tarixi şəxsiyyətləri, el sənətkarları, şair və yazıçıları, insanların əmək vərdişləri və yaşam tərzi gündəmə gətirilir. Hətta bəzi görkəmli şəxsiyyətlərin xatirə günləri təşkil edilir, tədqiqatçı alimlərin, şair və yazıçıların Qərbi Azərbaycana dair kitabları nəşr edilir.

Bu kimi məsələlərə məsuliyyət və diqqətlə yanaşan Qərbi Azərbaycan İcmasının bəyanat və çıxışlarında dünya ictimaiyyətinə, habelə beynəlxalq hüquq müdafiəçilərinə xitabən bildirilir ki, min illərlə o ərazilərdə yaşamış azərbaycanlıların tarixi torpaqlarına qayıdışı beynəlxalq sənədlərdə təsbit olunan hüquqlarıdır. Məsələn, adi bir fakt: ötən əsrdə Qərbi Azərbaycanın dörd bir yanında olduğu kimi, Göyçə gölündən 5 kilometr şimalda yerləşən Toxluca kəndində də (Çəmbərək rayonu) bu torpaqların əsl sahibi olan azərbaycanlılar dəfələrlə etnik təmizləməyə məruz qalıblar. 1988-ci ilin dekabrında baş verən deportasiyaya qədər Çəmbərəkdə rayon mərkəzindən sonra ən böyük yaşayış məntəqəsi olan bu kənddə 3200-ə yaxın azərbaycanlı yaşayıb. Kəndin bünövrəsinin VII əsrdə qoyulduğu ehtimal olunur. Kəndin adı 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə, Qafqazın 5 verstlik xəritəsində qeyd edilib. Toxluca toponiminin Azərbaycan dilində "dağlıq yer" anlamında olan "dağlıqca" sözünün fonetik forması əsasında əmələ gəlməsi fikri var. Kənddə zamanında Anağızoğlu, Dərəyurd, Düzyurd, Taxça, Əyricə, Dərəkom, Ayıdərəsi, Quzey, Xırmanlı, Kərəmbiçən, Qurdlubulaq, Biçənək adlı qışlaqlar olub. Toxlucadakı yer adları da bu torpaqların tarixən öz əzəli sahiblərinə, yəni azərbaycanlılara məxsusluğundan xəbər verir.

Məlumdur ki, neçə-neçə kənd, el-oba ayrı-ayrı zaman kəsiyində eyni taleyi, ağrı-acını yaşamağa məhkum edilib. Bu yerlərin qanuni sakinləri beynəlxalq hüququn tələbləri çərçivəsində öz yurd-yuvalarına qayıtmaq arzusu ilə yaşayırlar. Onlar inanırlar ki, tarixi həqiqətə və rəsmi sənədlərə söykənən bu istək Azərbaycan Prezidentinin uzaqgörən xarici siyasəti nəticəsində reallaşacaq. Görünən odur ki, son günlər Ermənistan hakimiyyəti və ictimaiyyəti bundan bərk narahatlıq keçirirlər. Unudurlar ki, insan hüquqlarının tələb və tövsiyələrinə əsaslanan bu istək gec-tez ədalətli həllini tapacaq. Ermənistan Azərbaycan xalqının əsrlər boyu öz dədə-baba torpaqlarında - Qərbi Azərbaycanda yaşaması, zəngin maddi-mənəvi irs yaratması faktını danmağa çalışsa da, bu, mümkün deyil.

Xatırladaq ki, bütün bunlar başda Birləşmiş Millətlər Təşkilatının (BMT) katibliyi, BMT Təhlükəsizlik Şurası və Baş Assambleyasının rəsmi sənədləri kimi yayılıb. Bu istiqamətdə icmanın təşəbbüsü ilə indiyədək BMT-nin rəsmi sənədi kimi 10-a yaxın bəyanatı və müraciəti bəyənilib. Bütün bunlarla yanaşı, digər dövlətlərin və tərəqqipərvər beynəlxalq təşkilatların başçıları, habelə tanınmış insan hüquqları müdafiəçiləri ən yüksək kürsülərdən qərbi azərbaycanlıların haqlı tələblərini günü bu gün də dəstəkləyirlər. Lakin məsələyə ikili standartlarla yanaşan bəzi ermənipərəst qüvvələr tarixi həqiqəti bilmədən, bəzən də bilərəkdən özlərini görməzliyə, eşitməzliyə vuraraq yalançı istəkləri ilə çıxış edib ictimaiyyəti aldatmağa çalışırlar. Belə təşkilatlardan biri, özünü insan hüquqlarının müdafiəçisi adlandıran "Human Rights Watch" təşkilatı bu günlərdə dünyada insan hüquqlarının vəziyyətinə dair illik hesabat dərc edib. Hesabatın Azərbaycana dair hissəsində çoxsaylı böhtanlarla yanaşı, ölkəmizdən köçüb getmiş ermənilərin qayıdışına şərait yaradılması məsələsi qaldırılır. Lakin Ermənistana dair hissədə oradan qovulmuş azərbaycanlıların qayıdışı barədə bir kəlmə də olsun bəhs edilmir. Odur ki, Qərbi Azərbaycan İcmasının bu günlərdə haqlı olaraq dünya ictimaiyyətinə və bir çox ölkənin aidiyyəti qurumlarına ünvanladığı bəyanatında "Human Rights Watch" təşkilatının Azərbaycana qarşı ayrı-seçkiliyi pislənilib.

Bəyanatda deyilir: "Hesab edirik ki, bu, "Human Rights Watch" təşkilatı tərəfindən Azərbaycan xalqına etnik və dini əsasda ayrı-seçkilikdir. İrqi ayrı-seçkilik hər bir halda qəbuledilməzdir. Bu ayrı-seçkiliyi özünü insan hüquqlarının müdafiəçisi kimi qələmə verən təşkilatların həyata keçirməsi isə insan hüquqlarına ikiqat ağır zərbə vurur. Ələlxüsus, xatırladaq ki, bu hesabatın dərc edilməsindən az əvvəl keçmiş prezident Levon Ter-Petrosyanın Ermənistanın qərbi azərbaycanlılara qarşı etnik təmizləməsinin dövlət siyasəti olduğunu təsdiq edən çıxışı yayılmış və biz bu barədə "Human Rights Watch"a xüsusi müraciət ünvanlamışdıq.

Biz "Human Rights Watch" təşkilatı və onun arxasında duran qüvvələrdən insan hüquqlarından siyasi alət kimi istifadə etməyi, azərbaycanlılara qarşı irqi ayrı-seçkiliyi və Ermənistanın etnik təmizləmə siyasətinə dəstəyini dayandırmağı tələb edirik".

Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli yanvarın 28-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirədə Qərbi Azərbaycanla bağlı gündəmi zəbt edən, ictimaiyyətin maraqla izlədiyi ictimai-siyasi məsələlərlə bağlı mətbuata açıqlamasında demişdir: "Müşavirədə qeyd edildiyi kimi, Zəngəzur dəhlizi öz aktuallığını saxlayır. Hazırda Ermənistan rəhbərliyi öz imzasına hörmətlə yanaşmasa da, gec-tez buna məcbur olacaq, ya da dalan ölkə kimi kənarda qalacaqdır. Cənab Prezidentin dediyi kimi, ermənilərin çar Rusiyası tərəfindən Azərbaycan ərazisinə köçürülməsi, ondan da əvvəl verilən vədlərə baxmayaraq, Qarabağ xanının öldürülməsi, 1920-ci ilin noyabrında Qərbi Zəngəzurun alınaraq Ermənistana verilməsi, Azərbaycan ərazisində "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin yaradılması kimi cinayətləri, eləcə də XX əsrin digər cinayətləri olan Xocalı soyqırımı, 20 Yanvar faciəsi və torpaqlarımızın 1990-cı illərin əvvəllərində işğalı bizim qan yaddaşımızdadır və heç vaxt unudulmayacaqdır. Dövlətimizin başçısı demişdir: "Yəni bunu unutmamışıq, Azərbaycan xalqı bunu unutmayıb. Zəngəzuru unutmamışıq və unutmayacağıq. Yenə də deyirəm, Ermənistana ərazi iddiamız yoxdur. Ancaq Ermənistan öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirərək Azərbaycandan-Azərbaycana maneəsiz keçid verməlidir".

Zamanın diktə etdiyi reallığa münasibətdə Müzəffər Ali Baş Komandanın mövqeyi aydın, tələbi qətidir. Bu da onu göstərir ki, Zəngəzur nəqliyyat dəhlizi yaxın zamanlarda açılacaqdır.

Görünən odur ki, Qərbi Azərbaycana qayıdış soydaşlarımızın bütün beynəlxalq sənədlərdə təsbit olunan təməl hüququdur. Hər bir qərbi azərbaycanlı tarixi torpaqlarımıza, Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını dəstəkləyir və öz dədə-baba yurduna ləyaqətli, təhlükəsiz şəkildə qayıdışın reallaşacağına tam əmindir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Sülh və insanlıq əleyhinə, müharibə və digər ağır cinayətlərdə təqsirləndirilən erməniəsilli şəxslərin məhkəməsi davam etdirilib








Fevralın 7-də Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və adətlərini pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə məhkəmə prosesinin baxış iclası davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Məhkəmə Kompleksində yerləşən Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, habelə müdafiələri üçün vəkillərlə təmin olunub.

Məhkəmə iclasında zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar, habelə Azərbaycan dövləti adından zərərçəkmiş qismində Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov iştirak ediblər.

Məhkəmə prosesi dövlət ittihamını müdafiə edən prokurorlar tərəfindən cinayət işi üzrə ittiham aktının nəticəvi hissəsinin elanı ilə davam etdirilib.

Dövlət ittihamçıları Ermənistan dövlətinin, onun struktur qurumlarının yüksəkvəzifəli şəxslərinin rəhbərliyi, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi, bilavasitə iştirakı, eləcə də ciddi nəzarəti altında, habelə Ermənistanın hərbi qüvvələri və qanunsuz silahlı birləşmələri tərəfindən Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə Azərbaycana hərbi təcavüz etmək məqsədilə Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə yaradılmış cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibə nəticəsində Azərbaycan Respublikasının suveren ərazilərinin işğal olunması ilə bağlı cinayət əməlləri üzrə epizodları elan edib.

Dövlət ittihamçısı Təranə Məmmədova İttiham aktına əsasən elan edib ki, Ermənistan silahlı qüvvələrinin və qanunsuz silahlı birləşmələrinin apardığı təcavüzkar müharibə nəticəsində Azərbaycanın suveren əraziləri olan 12 şəhər, 18 qəsəbə, 895 kənd, ümumilikdə 925 yaşayış məntəqəsi işğal olunub və uzun illər ərzində işğal altında saxlanılıb, bununla da xüsusi və dövlət mülkiyyətində olmuş ümumilikdə 37 min 168 əmlak üzrə 19 milyard manatdan artıq maddi ziyan vurulub.

Dövlət ittihamçısı Fuad Musayev bildirib ki, Xankəndi şəhəri və onun Kərkicahan qəsəbəsinin işğal edilməsi nəticəsində 2944 dinc sakin didərgin salınıb, həmin şəxslərin xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 4579 əmlak üzrə 636 milyon manatdan artıq maddi ziyan vurulub.

Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Kərki kəndinin işğalı (hazırda Sədərək rayonunun Kərki kəndi) nəticəsində 461 dinc sakin didərgin salınıb, xüsusi mülkiyyətdə və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 54 əmlak üzrə 7 milyon manatdan artıq maddi ziyan vurulub.

Qazax rayonunun 7 kəndinin - Bağanıs-Ayrım, Aşağı Əskipara, Xeyrımlı, Barxudarlı, Sofulu, Qızılhacılı, Yuxarı Əskiparanın işğalı nəticəsində 3159 dinc sakin didərgin salınıb, xüsusi və dövlət mülkiyyətində olan ümumilikdə 896 əmlak üzrə 137 milyon manatdan artıq maddi ziyan vurulub.

Xocalı şəhəri və Əsgəran qəsəbəsinin də daxil olduğu, ümumilikdə 50 kənddən ibarət Xocalı rayonunun işğalı nəticəsində 7161 dinc sakinin xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 1067 əmlak üzrə 103 milyon manatdan artıq maddi ziyan vurulub.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev bildirib ki, Şuşa şəhəri, Turşsu qəsəbəsi və 37 kənddən ibarət Şuşa rayonunun işğal edilməsi nəticəsində 16 min 299 dinc sakin didərgin salınıb, həmin şəxslərin xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 2769 əmlak üzrə 391 milyon manatdan artıq maddi ziyan vurulub.

Xocavənd şəhəri, 2 qəsəbə (Qırmızı Bazar və Hadrut qəsəbələri) və 80 kənddən ibarət olan Xocavənd rayonunun işğalı nəticəsində 7451 azərbaycanlı sakini məcburi qaydada evlərindən didərgin salınıb, onların xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 2607 əmlak üzrə cəmi 340 milyon manatdan artıq maddi ziyan vurulub.

Laçın şəhəri, Qayğı qəsəbəsi və 124 kənddən ibarət olan Laçın rayonunun işğal olunması nəticəsində 57 min 47 sakin məcburi qaydada evlərindən didərgin salınıb, onların xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 15 min 459 əmlak üzrə cəmi 2,7 milyard manatdan artıq maddi ziyan vurulub.

Kəlbəcər şəhəri, İstisu qəsəbəsi və 147 kənddən ibarət Kəlbəcər rayonunun işğal olunması nəticəsində 48 min 847 dinc sakin didərgin salınıb, onların xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 17 min 489 əmlak üzrə 2,2 milyard manatdan artıq maddi ziyan vurulub.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli elan edib ki, Tərtər rayonunun bir sıra kənd və yaşayış məntəqələrinin işğal olunması nəticəsində 899 dinc sakin didərgin salınıb, onların xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 1127 əmlak üzrə 155 milyon manatdan artıq maddi ziyan vurulub.

Ağdam rayonunun böyük hissəsinin işğalı nəticəsində 100 min 574 dinc sakin didərgin salınmış, həmin şəxslərin xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 31 min 736 əmlak üzrə 3,7 milyard manatdan artıq maddi ziyan vurulub.

Füzuli rayonunun böyük hissəsinin işğal edilməsi nəticəsində 83 min 544 dinc sakin didərgin salınıb, onların xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 22 min 635 əmlak üzrə 3,4 milyard manatdan artıq maddi ziyan vurulub.

Cəbrayıl şəhəri, Xələfli, Xudafərin, Qumlaq, Mahmudlu qəsəbələri və 92 kənddən ibarət Cəbrayıl rayonunun işğal edilməsi nəticəsində 52 min 141 dinc sakin didərgin salınıb, onların xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 15 min 206 əmlak üzrə 2,1 milyard manatdan artıq maddi ziyan vurulub.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramov qeyd edib ki, Zəngilan şəhəri, 5 qəsəbə və 79 kənddən ibarət Zəngilan rayonunun işğalı nəticəsində 32 min 775 dinc sakin didərgin salınmış xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 9679 əmlak üzrə 1,3 milyard manatdan artıq maddi ziyan vurulub.

Qubadlı şəhəri və 93 kənddən ibarət Qubadlı rayonunun işğalı nəticəsində 29 min 539 dinc sakin didərgin salınıb, onların xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 10 min 159 əmlak üzrə 1,8 milyard manatdan artıq maddi ziyan vurulub.

Bundan başqa, ittiham aktında qeyd edilib ki, təcavüzkar müharibə nəticəsində ümumilikdə Azərbaycan Respublikasının mədəni sərvətinə aid olmaqla dəymiş zərərin qiymətləndirilməsi mümkün olan ən azı 697 tarix və mədəniyyət abidəsi hücum obyektinə çevrilməklə, hərbi əməliyyatların dəstəklənməsi üçün istifadə edilməklə, qəsdən böyük həcmdə yandırılmaqla, artilleriya qurğularından atəşlər açıb partladılmaqla və sair fiziki üsullarla qismən və tamamilə dağıdılmaqla, eləcə də oğurluq, soyğunçuluq, vandalizm aktları törədilməklə Azərbaycan Respublikasına və Azərbaycan xalqına 906 milyon manatdan artıq maddi ziyan vurulub.

Eyni zamanda Azərbaycan Respublikasının suveren ərazilərinin işğal olunması nəticəsində didərgin salınmış dinc sakinlərin sosial təminatı və maddi-məişət şəraitinin təmin edilməsinə sərf edilmiş vəsaitlər nəzərə alınmaqla Azərbaycan dövlətinə ümumilikdə 8,8 milyard manatdan artıq maddi ziyan vurulub.

Daha sonra dövlət ittihamçısı Vüsal Abdullayev təcavüzkar müharibə gedişində Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı, habelə soyqırımı əlamətləri olmadan əhalinin bütövlükdə və ya qismən məhv edilməsi faktlarını elan etməyə başlayıb.

Bildirilib ki, Xocalı rayonunun ərazisində yaşayan azərbaycanlı əhalini kütləvi şəkildə milli-etnik mənsubiyyətinə görə bir qrup kimi məhv etmək niyyəti ilə onları öldürmək, sağlamlığına ağır və əqli qabiliyyətinə ciddi zərər vurmaq məqsədilə Xocalı rayonuna və ətraf yaşayış məntəqələrinə silahlı basqınlar edilib, azərbaycanlıları baş dərisinin soyulması, qulaq, burun, cinsiyyət üzvlərinin kəsilməsi, gözlərinin çıxarılması, diri-diri yandırılması, cinayətkar fəaliyyətinin qarşısının alınması üçün zərərsizləşdirilmiş erməniəsilli şəxslərin qəbirləri üzərində başlarının qurbanlıq kimi kəsilməsi, qadına, qocaya və uşağa da fərq qoymadan qəddarlıqla müxtəlif işgəncələr verilməsi ilə ümumilikdə 613 şəxsin qəsdən öldürülüb məhv edilməklə Xocalı soyqırımı törədilib.

Məhkəmə fevralın 11-də davam etdiriləcək.

Xatırladaq ki, sözügedən cinayət işi üzrə 15 nəfər - Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan Davit Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beglaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı



## Ədalətin bərqərar olunması naminə

### Bu məhkəmə prosesi həm də dəhşətli cinayətlərin təkrarlanmasının qarşısını almaq üçün mühüm əhəmiyyət kəsb edir

**Tarix nə unudur, nə də unudulur. Və gec-tez bütün cinayətkarlar, qatillər öz bədnam əməllərinə görə cavab verməli olurlar. Sonda ədalət öz yerini tutur, haqq qalib gəlir.**

Erməni vandalları 1990-cı illərdə Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur torpaqlarını günahsız azərbaycanlıların qanına boyayanda, qoca, cavan, uşaq, əlil demədən, yalnız milli kimliklərinə görə insanlara divan tutanda, işgəncələr verəndə, qətliamlar, soyqırımları törədəndə nəinki bu həqiqəti yadlarına salmırdılar, hətta özlərini "qəhrəman", "qalib" hesab etdilər.

Otuz il Azərbaycan xalqını ən böyük mənəvi ağrılara məhkum etdilər. Xalqımız yalnız erməni quldurları tərəfindən vəhşicəsinə qətlə yetirilən, şikəst edilən soydaşlarımızın dərdlərini çəkmədi. Eyni zamanda Ermənistanın həmin illərdə işğal etdiyi iyirmi faiz ərazisindən nigaran yaşadı. Azərbaycan xalqı Qarabağda, Şərqi Zəngəzurda qəsbkar ermənilərin amansızlıqla uçurub, dağıtdıqları, talan etdikləri, od vurub yandırdıqları, xarabalığa çevirdikləri yurdlarımızın həsrətini çəkdi.

Ermənistan Qarabağ və Şərqi Zəngəzuru otuz ilə yaxın işğal altında saxladı. 2020-ci il sentyabrın 27-də işğalçı ölkənin silahlı qüvvələrinin növbəti təxribatı Vətən müharibəsinin başlamasına səbəb oldu. 44 gün davam edən müharibədə qəhrəman Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini məğlub etdi, Qarabağ və Şərqi Zəngəzur azadlığına qovuşdu.

2023-cü ilin sentyabrında həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində isə Azərbaycanın suverenliyi tam təmin olundu. Artıq üçrəngli, ay-ulduzlu bayrağımız ölkəmizin bütün ərazilərində dalğalanır.

Azərbaycan xalqına qarşı çoxsaylı cinayətlərin törədilməsində ittiham olunanların həbs edilərək respublikamızın paytaxtına gətirilmələri, əməllərinə görə məhkəmə qarşısında cavab vermələri də ilahi ədalətin təcəssümüdür.

Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və adətlərini pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan və digərlərinin, eləcə də Ruben Vardanyanın barəsində olan cinayət işləri üzrə məhkəmə proseslərinin baxış iclası fevralın 6-da başladı.

Əvvəlcə onu qeyd edək ki, Bakı Hərbi Məhkəməsində keçirilən iclasda təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə, yəni erməni və rus dillərində tərcüməçi, həmçinin müdafiələri üçün vəkillər ilə təmin edilib.

Ermənistan Respublikası və onun silahlı qüvvələri, o cümlədən Ermənistanın yaratdığı qondarma "Dağlıq Qarabağ respublikası" və onun qanunsuz silahlı birləşmələri tərəfindən törədilən cinayətlərdə ittiham olunan 15 nəfər erməniəsilli şəxsin təqsirləndirildiyi cinayət işi üzrə məhkəmə prosesinin əvvəlində təqsirləndirilən şəxs Arayik Harutyunyan məhkəmədən söz istədi, hakimin icazəsindən sonra müraciətini səsləndirdi. Arayik Harutyunyan hazırda baxılan cinayət işi üzrə ittiham olunan şəxslərə psixoloji təzyiq göstərilməsi və psixotrop dərmanların verilməsinə dair Ermənistan mediasında yayılan iddiaları yalan adlandırdı: "Nəzərə alsaq ki, təcridxanada bizim məlumat almaq, etiraz etmək imkanlarımız olub. Həmçinin Ermənistan mediasında və digər kütləvi informasiya vasitələrində bizim saxlanma şəraitimiz daim müzakirə olunur. Başa düşdüyüm qədər Ermənistan Respublikasının baş naziri bəyan edib ki, bizə qarşı psixoloji təzyiq və həmçinin psixotrop dərmanlardan istifadə edilməsi barədə fikirləri var". Arayik Harutyunyan təcridxanada bütün qanunlara əməl olunduğunu da diqqətə çatdırdı: "Beynəlxalq Qırmızı Xaç Komitəsi vaxtaşırı olaraq bizi ziyarət edir. Bizim ailə üzvlərimizlə telefon zəngi imkanlarımız olur. Təcridxanada bizə qarşı münasibət qanuni qaydada təmin olunur və bizimlə qanuni davranırlar. İstintaq dövründə də müstəntiqlər tərəfindən hüquqlarımız təmin olunub. Vəkillər həmişə istintaqda iştirak ediblər. Xüsusilə qeyd etmək istəyirəm ki, bizə qarşı hər hansı bir təzyiq olmayıb. İstintaq zamanı bizimlə hər zaman qanun çərçivəsində davranıblar. Təşəkkür edirəm".

Məhkəməyə müraciət edərək söz istəyən digər təqsirləndirilən şəxs Davit Babayan da saxlanma şəraitindən razı olduğunu, ona və digər təqsirləndirilən şəxslərə təzyiq göstərilmədiyini söylədi: "Bizimlə hər dəfə hörmətlə davranırlar və yerimizdə başqası olsa nə edərdi onu özlərinə sual versinlər. Bizim həqiqəti demək cəsarətimiz var. Həqiqət sərhəd tanımır. Burada saxlanma yerimiz də çox yaxşıdır".

Göründüyü kimi, Ermənistan hökumətinin, eləcə də Ermənistan kütləvi informasiya vasitələrinin qəsdən yaydıqları bir sıra məlumatların yalan, böhtan olduqlarını cinayət əməllərinə görə mühakimə olunan şəxslərin özləri də etiraf edirlər.

Dövlət ittihamını müdafiə edən prokurorun giriş nitqi ilə məhkəmə iştirakçılarına müraciətində qeyd etdiyi kimi, hazırkı məhkəmə prosesi ədalətin bərqərar olması naminə keçirilir: "Cinayət işində olan sübutlar tarixi faktlara əsaslanmaqla göstərir ki, törədilmiş cinayətlər ayrı-ayrı təsadüfi hadisələr olmayıb, onlar ən yüksək səviyyədə mütəşəkkil qaydada planlaşdırılaraq qəddarlıqla və amansızlıqla törədilib".

Tədqiq və təqdim edilən cinayətlərin Ermənistan dövlətinin siyasi, hərbi, maddi və digər dəstəyi, Ermənistanın siyasi-hərbi rəhbərliyinin verdiyi göstəriş və təlimatları nəticəsində törədildiyinin məhkəmə prosesində aydın olacağını qeyd edən dövlət ittihamını müdafiə edən prokuror vurğuladı: "Bu məhkəmə prosesi, həmçinin belə dəhşətli cinayətlərin təkrarlanmasının qarşısını almaq üçün mühüm tarixi əhəmiyyət kəsb edir. Məhkəmə prosesində sübut olunacaq ki, müharibə cinayətkarları üçün təhlükəsiz sığınacaq, məkan yoxdur və beynəlxalq münasibətlər güc və zorakılıqla deyil, hüquq və qanunla nizamlanmalıdır".

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Garo Paylan kimilərin revanşist niyyətləri Ermənistanı məhvə aparacaq

"Ermənilər harada yaşamasından asılı olmayaraq, onların içində gəzdirdikləri türkofob və azərbaycanofob baxışları dəyişilmir. Ona görə də onlar hər zaman fürsət axtarışındadırlar və yenidən özlərinin çirkin niyyətlərini reallaşdırmaq arzuları arxasınca getməkdə davam edirlər".



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Azər Badamov deyib. O bildirib ki, amma arzuları ürəklərində qalacaq və ermənilərin uydurduqları miflər onları içindən çürütməklə məhvə aparacaq. Çünki xainləri heç kim sevmir. Belə ki, Türkiyə Böyük Millət Məclisinin keçmiş deputatı Garo Paylan da yaşadığı və ermənilərin hətta dövlətdə və parlamentdə təmsilçiliyinə şərait yaradığı Türkiyəyə qarşı içində nifrət gəzdirən erməni ünsürlərindəndir. Hansı ki, Türkiyə ərazisində yaşayan ermənilərə qucaq açıb onların yaşaması üçün hər cür şərait yaradıb. Belə ki, kilsələrin, icmaların, məktəblərin fəaliyyətinə heç bir məhdudiyyət qoyulmur və erməni toplumun inkişafı üçün bütün imkanlar yaradıb. "Amma ermənilər onlara qarşı heç bir təzyiq olmasa da, Türkiyəyə də öz nifrətlərini ifadə etməkdə davam edirlər. Garo Paylan keçən il sosial şəbəkələrdə saxta erməni soyqırımının 109-cu ildönümü olduğunu qeyd edərək paylaşım etmişdi. Ermənistanın baş naziri Paşinyan isə bu yaxınlarda heç bir genosidin olmadığını və bunun Rusiyanın Türkiyəyə təzyiq göstərilməsi üçün 50-ci illərdə ortaya atdığı absurd bir ideya olduğunu bildirmişdi. Garo Paylan təkcə Türkiyəyə deyil, həm də Azərbaycana qarşı da öz çirkin fikirlərini ifadə etməkdən çəkinməyib. Belə ki, ekoaktivistlərin Laçın yolunda etiraz aksiyaları zamanı Garo Paylan Qarabağdakı separatçı xuntanı dəstəkləyərək dünya ictimaiyyətinə Azərbaycana təzyiq göstərilməsi üçün çağırış etmişdi", - deyə o əlavə edib.

Deputat bildirib ki, İrəvana səfər edən Garo Paylan revanşist açıqlamalarından yenə geri qalmayıb. O, Ermənistanın indi Azərbaycana hücum etmək üçün gücünün olmadığını və 3-5 il ərzində güc yığaraq ABŞ və Fransa ilə öz arzularına çatacağını bildirib. Əslində bu, təkcə Garo Paylanın fikirləri deyil, həm də Paşinyanın ürəyindən keçən arzusudur. Məhz ona görə də Paşinyan beynəlxalq platformalarda sülhdən danışaraq sülh prosesini manipulyasiya edir və dünya ictimaiyyətinə özünü sülhün carçısı kimi nümayiş etdirərək ermənilərin çirkin niyyətlərinə çatması üçün zaman qazanmağa çalışır. Revanşizm və azərbaycanofob siyasət yürüdən Paşinyan ondan əvvəl Ermənistana rəhbərlik etmiş Ter-Petrosyan, Koçaryan və Sarkisyandan heç nə ilə fərqlənmir. Vaxtilə onlar da öz hakimiyyətləri dövrün azərbaycanlılara divan tutaraq deportasiyalar və soyqırımları törədiblər.

A.Badamov vurğulayıb ki, Ermənistan bu gün gücsüz olduğuna görə, Paşinyan cildini dəyişib və hiyləgərcəsinə silahlanmanı davam etdirir: "Amma onu da qeyd etməliyik ki, Paşinyan yavaş-yavaş tərəfdaşlarını itirməkdədir. ABŞ-də Bayden hakimiyyətinin dəyişməsi və Trampın hakimiyyətə gəlməsi ermənilərin heç də ürəyindən olmadı. Tramp USAID-ın bağlanması ilə bağlı qərar verdi. Bu təsisat ötən il inkişafa dəstək adı altında Ermənistana 250 milyon dollar yardım göndərməyi planlamışdı. Təbii ki, ABŞ-də hakimiyyətin dəyişməsi və dövlət səviyyəsində bütün yardım proqramlarının dayandırılmasının elan olunması Paşinyanın və ya Paylanın niyyətlərinə uyğun olmadı. Amma Paşinyan 5-ci Beynəlxalq Din Sammitində iştirak etmək adı altında Vaşinqtona səfər etdi və Trampla heç olmasa bir şəkil çəkdirməyə çalışdı. Amma onun arzuları yenə də ürəyində qaldı".

ABŞ-nin Ermənistana hərbi dəstəyinin dayandırılacağını düşünən deputat deyib ki, Fransa Prezidenti Makron isə Paşinyana bacılıq etməkdə davam edir. Bu baxımdan Fransanın hələ ki, Ermənistana hərbi dəstək göstərməkdə davam edəcəyi gözləniləndir. Hətta Makronun Azərbaycana qarşı beynəlxalq platformalarda təzyiq göstərməkdə davam edəcəyi də. Amma Makronun dayaqları da itməkdədir və yaxın gələcəkdə Fransanın özündə də hakimiyyət dəyişikliyinin baş verəcəyi gözlənilir. Çünki Makronun yarıtmaz hakimiyyəti Fransanı hörmətdən salıb və ölkədaxili problemləri daha da kəskinləşdirib.

A.Badamov qeyd edib ki, Ermənistan dilənçiliklə silahlanmaqla Azərbaycandan heç vaxt üstün ola bilməz. Azərbaycanın Müzəffər Ordusu 44 günlük Vətən müharibəsində öz gücünü döyüş meydanında göstərib. 2023-cü ilin 20 sentyabrında keçirilmiş lokal xarakterli antiterror tədbirlərində də ordumuz "dəmir yumruğ"un daha da gücləndiyini bir daha nümayiş etdirdi. Ermənistanın silahlanması ölkəmizə potensial təhlükə mənbəyinə çevrilərsə, təbii ki, onlar yerindəcə məhv ediləcək. Dövlət başçımızın da qeyd etdiyi kimi, Azərbaycan üçün potensial təhlükə mənbəyi onun harada yerləşməsindən asılı olmayaraq, məhv edilməsi üçün legitim hədəf sayılacaq. Bu baxımdan Garo Paylan, Nikol Paşinyan və digər ermənilərin revanşist niyyətləri Ermənistanı ancaq məhvə aparır. Təbii ki, erməninin qanını və ya genini dəyişmək mümkün deyil. Təəssüf ki, onlar tarixdən dərs götürmürlər.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Avropa İttifaqının Ermənistandakı "müşahidə missiyası" sülhə xidmət etmir

**Avropa İttifaqının ölkəmizə qarşı qərəzli mövqe tutması təzə xəbər deyil. Xeyli müddətdir ki, işğalçı Ermənistanı dəstəkləyən bu qurum anti-Azərbaycan təbliğatı ilə məşğul olan təşkilata çevrilib. Bu günə qədər ölkəmizin əleyhinə heç bir hüquqi əsası olmayan çoxsayda qətnamələr qəbul edib.**

Bu qətnamələrin ermənipərəst qüvvələrin təkidi ilə qəbul olunduğu da sirr deyil. Həmin kağız parçalarının qəbuluna səs verənlər Avropa Parlamentinə seçkilər zamanı erməni lobbisindən maliyyə və seçici dəstəyi alan şəxslərdir. Bu, bir daha göstərir ki, Avropa İttifaqının, bütövlükdə Qərb ölkələrinin Azərbaycana qarşı atdığı addımların arxasında yalnız şəxsi və maddi maraqlar dayanır.

Avropa Parlamentində Azərbaycan əleyhinə qətnamələrin qəbul edilməsində yalnız bir qrup parlamentari xüsusi fəallıq göstərir. Onlar əsasən Fransanı təmsil edən deputatlardır. Bu addımları erməni lobbisini razı salmaq üçün atırlar.

Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazandığı qələbəsi ilə yalnız işğalçı Ermənistanı məğlub etmədi. Ölkəmiz İkinci Qarabağ müharibəsində qazandığı zəfəri, qələbəsi ilə uzun illər rəsmi İrəvana müxtəlif formalarda dəstək verən ölkələrə və bəzi beynəlxalq təşkilatlara da sarsıdıcı zərbə vurdu. Odur ki, bu qüvvələr Azərbaycana qarşı hücuma keçiblər.

İkinci Qarabağ müharibəsi qələbəmizlə başa çatandan sonra Avropa İttifaqı müşahidəçilik missiyası məsələsini ortaya atdı. Rəsmi Bakı isə dəfələrlə bildirdi ki, Avropa İttifaqının mülki müşahidə missiyasının Ermənistan tərəfdən Azərbaycan sərhədi yaxınlığında fəaliyyətinə ehtiyac yoxdur. Amma buna baxmayaraq, Avropa İttifaqı missiyasını daha da genişləndirdi. Bütün bunlar isə regionda vəziyyəti daha da gərginləşdirdi.

Son günlər Avropa İttifaqının Ermənistanın Azərbaycanla sərhədində yerləşdirilən "müşahidə missiyası" Zəngilan istiqamətində fəaliyyətini aktivləşdirib. Yayılan görüntülərdən də müşahidə olunur ki, Ermənistanla Azərbaycan arasındakı şərti sərhəddə yerləşdirilən Aİ-yə məxsus maşın karvanı sərhədə doğru irəliləyir. Xatırladaq ki, "missiya"nın təxribat xarakterli fəaliyyətləri ilə bağlı Azərbaycan tərəfi dəfələrlə öz narazılığını bildirib və bildirməkdə davam edir. Çünki "müşahidə missiyanın" gərginlik yaratmaqdan başqa heç bir işi yoxdur.



Bütün baş verən hadisələrdən, Azərbaycana qarşı qərəzli mövqedən aydın olur ki, regionda gedən sülh prosesləri Qərbin müəyyən strukturlarının ürəyincə deyil. Buna görə də bütün vasitələrlə gərginliyə səbəb ola biləcək addımlar atılır. Sirr deyil ki, Qərbin gizlin və açıq Ermənistan planında Moskvanın bölgədən sıxışdırılıb çıxarılması prioritetdir. Bundan başqa, hər vəchlə Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxarılmasına cəhd edilir. Amma görünən odur ki, bu istiqamətdə atılan addımlar çox uğursuzdur. Çünki Ermənistan hələ də KTMT-də qalmaqdadır.

Azərbaycan Prezidenti İlham Əliyev yanvar ayının 7-də yerli televiziya kanallarına verdiyi müsahibəsində Avropa İttifaqının, Qərb ölkələrinin ölkəmizə qarşı qərəzli mövqe tutmağından, Ermənistanı silahlandırmağından bəhs edərək demişdir: "Mən onu da bildirmişdim ki, Ermənistan silahlanma yarışında bizimlə rəqabət apara bilməz. Ancaq biz burada bir məsələni də nəzərə almalıyıq. Ermənistana bu silahlar ya pulsuz verilir, ya da ki, kredit şəklində. O kreditlər də müəyyən dövrdən sonra silinir. Eyni zamanda Avropa İttifaqının dırnaqarası sülh fondundan. Dırnaqarası, çünki sülh fondu, əslində, sülh məqsədləri üçün istifadə olunmalıdır. Onların sülh fondu isə silahlanmaya istiqamətləndirilir. Oradan da birinci ödəmə edildi və bizdə olan məlumata görə, bu, son ödəmə deyil".

Dövlətimizin başçısı müsahibəsi zamanı aparılan sülh danışıqlarına toxunaraq demişdir ki, biz dörd ildən çoxdur ki, səbir göstəririk. Dörd ildən çoxdur istəyirik ki, bu, danışıqlar yolu ilə həll olunsun. Biz nə qədər gözləməli olacağıq və nə üçün gözləməliyik? Yəni onlar bütün bunları nəzərə almalıdırlar. Mən bir dəfə demişəm, onlar gərək bizi əsəbləşdirməsinlər və başa düşsünlər ki, burada söz sahibi bizik və Cənubi Qafqazda Azərbaycan aparıcı iqtisadiyyatdır, aparıcı hərbi gücdür və aparıcı dövlətdir. Bugünkü dünyada güc amili ön plandadır və bunu heç kim unutmasın.

Hadisələrin gedişi göstərir ki, Ermənistan regionda sülh istəmir. Avropa İttifaqının Ermənistandakı "müşahidə missiyası" sülhə, əmin-amanlığa xidmət etmir. Nəhayət, rəsmi İrəvan Avropa İttifaqının müşahidə missiyasının ölkədən çıxarılmasına qərar verməlidir. Əks halda bundan uduzan yenə Ermənistan olacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## Erməni diasporu Paşinyana qarşı çıxdı

**Ermənistanın bir dövlət olaraq ayaq üstə qalmasında mühüm rol oynayan diaspor və lobbi qüvvələri ilə İrəvan arasında münasibətlərin kifayət qədər pisləşməsi müşahidə olunmaqdadır.**

İrəvanın region dövlətlərlə düşmənçilik siyasətinin həyata keçirilməsində diasporun da rolunun olduğu heç kimə sirr deyil. Ancaq indi görünür ki, Paşinyan hakimiyyəti diasporun təsir dairəsindən uzaq olmağa çalışır.

Bu günlərdə ABŞ-də səfərdə olan Ermənistanın baş naziri Nikol Paşinyanın məqsədlərindən biri də erməni diasporu ilə əlaqə yaratmaq olub. Lakin görünən odur ki, o buna nail olmayıb. Belə ki, erməni diasporunun nümayəndələri Paşinyanı Vaşinqtonda etirazla qarşılayıblar.

Daha əvvəl isə Amerika Erməni Milli Komitəsi Paşinyanın Azərbaycanla sülhə nail olmaq üçün beynəlxalq məhkəmələrə müraciət etmək məsələsindən əl çəkməklə bağlı açıqlamasını kəskin tənqid edib. Əslində, Paşinyanla diaspor arasında münasibətlər pisləşməyə 44 günlük müharibədə Ermənistanın məğlubiyyəti fonunda başlayıb. Çünki diaspor məğlubiyyətin günahkarı qismində məhz Paşinyanı görür.

Erməni ictimai xadim Manvel Livanosyan deyib ki, 2020-ci il müharibəsi böyük bir birləşmək siqnalı idi. Diasporun Ermənistana kömək etməsi, sonra əl-qolunu çəkməsi onun üçün yolverilməzdir: "Biz eyforiya ilə yaşayırdıq, bu müddət ərzində isə rəqib silahlandı. 2020-ci ilə qədər eyforiya var idi, indi məyusluq var. Hakimiyyətdən asılı olaraq Ermənistanı sevmək və ya sevməmək olmaz".

Xatırladaq ki, üç il öncə Ermənistanın milli təhlükəsizlik xidməti "Vətəndaşlıq haqqında" qanuna əlavə və dəyişikliklərin edilməsi ilə bağlı qanun layihəsini ictimai müzakirəyə təqdim etmişdi. Layihədə "diaspor erməniləri"nin Ermənistan vətəndaşlığı almaları üçün prosedurların sərtləşdirilməsi nəzərdə tutulurdu. Xaricdə yaşayan ermənilər üçün vətəndaşlıq almaq prosedurunun sərtləşdirilməsinin əsas səbəbləri bölgədəki vəziyyət, Ermənistan vətəndaşlığı alan şəxslərin sonradan ölkəyə gəlməmələri və erməniliyin xeyrinə fəaliyyət göstərməmələridir.

Ümumiyyətlə isə, xaricdə yaşayan ermənilərin siyasi düşüncəsi yoxdur. Onların Ermənistan, millət, erməni məsələsi və dövlətə münasibətdə ideyaları həddindən artıq abstraktdır.

Hayastanda iqtisadi durum da getdikcə ağırlaşır. Bunu keçirilən sosioloji sorğular da təsdiqləyir. Belə ki, bu günlərdə rəyi soruşulan insanların 38,3 faizi ölkə iqtisadiyyatının pis vəziyyətdə olduğunu düşünür. Respondentlərin 35,6 faizinin fikrincə, Ermənistan iqtisadiyyatı çox pis vəziyyətdədir. Əhalinin yalnız 0,6 faizi iqtisadi vəziyyətin çox yaxşı olduğunu bildirib.

Ermənistanın ümumi dövlət borcunun 13 milyard ABŞ dollarına çatacağı proqnozlaşdırılır ki, siyasi dilemmaların fonunda gözlənilən defolt bu ölkənin xarici borc öhdəlikləri sahəsində ciddi çətinliklər meydana çıxaracaq. Çünki defolt o deməkdir ki, dövlət borc öhdəliklərini vaxtında yerinə yetirə bilmir.

Beləliklə, bir daha aydın olur ki, Ermənistan cəmiyyətində pessimizm baş alıb gedir. İqtidar problemlərin həllində çıxılmaz vəziyyətə düşüb, müxalifət isə istədiklərinə nail ola bilmir. Bu vəziyyət bütövlükdə ölkədə idarəçiliyi iflic vəziyyətinə salıb.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Azərbaycanın heç kimə ehtiyacı yoxdur

### Bədnam fəaliyyətlə məşğul olan USAID kimi təşkilatlara ölkəmiz çoxdan qapını bağlayıb

**Tramp hökuməti dünyanın 100-dən çox ölkəsində fəaliyyət göstərən və illik büdcəsi 50-60 milyard dollar olan şəbəkəyə çevrilən USAID-in (ABŞ Beynəlxalq İnkişaf Agentliyi) layihələrini dayandırıb. Artıq bu bədnam təşkilatın "X" hesabı bağlanıb, saytı da açılmır. Donald Tramp administrasiyası onun yardım proqramlarını dondurub.**

Bir sözlə, onilliklərdir demokratiya adı altında qeyri-qanuni fəaliyyət göstərən, ənənəvi dəyərləri təhlükə qarşısında qoyan, demək olar ki, dünyanın əksər ölkələrində xaos, qarşıdurma, bir sözlə, dağıdıcı mühitlər üçün münbit zəmin yaradan cinayətkar təşkilatın sonu çatıb.

Bəli, məhz cinayətkar təşkilat. Çünki elə bu günlərdə ABŞ Dövlət İdarəetməsinin Səmərəliliyi Departamentinin (DOGE) rəhbəri, amerikalı milyarder, "Tesla", "SpaceX" və "X" sosial şəbəkəsinin sahibi İlon Mask da USAID-i cinayətkar təşkilat adlandırıb, yəni onu öz adı ilə çağırıb. İ.Mask özünün "X"dəki səhifəsində etdiyi paylaşımlarında USAID-i bioloji silah təhqiqatları aparmaqda ittiham edib, eyni zamanda bu təşkilatın ləğvi prosesində olduqlarını bildirib.

#### İyrənc fəaliyyət

Müxtəlif ölkələrdə fərqli adlar altında fəaliyyət göstərən USAID sadə amerikalıların pulları ilə, sözün əsl mənasında, biabırçı layihələr reallaşdırıb.

Bu günlərdə Ağ Ev USAID-in dünya üzrə maliyyələşdirdiyi bəzi layihələr haqqında məlumat yayıb. Bura daxildir:

- Əfqanıstanda irriqasiya kanallarının yaradılması və gübrənin alınması (bu sistem narkotik istehsalında daha çox istifadə olunub)
- "Əl-Qaida" təşkilatı üçün 10 min porsiya yemək alınması;
- Kolumbiyada transgender operası;
- Peruda transgender komiksləri;
- İrlandiyada LGBT myuzikl;

Serbiyada işçi kollektivlərdə və işgüzar dairələrdə bərabərliyin və inklüzivliyin irəliləməsi (1,5 milyon dollar)

- Qvatemalada cinsin dəyişdirilməsi və LGBT fəallığa 2 milyon dollar;
- İnkişaf edən ölkələrdə personallaşdırılmış kontraseptivlərin maliyyələşdirilməsi və sair.

Aparılan araşdırmaların hələ hansı biabırçılıqları üzə çıxaracağını indidən demək çətin olsa da, Bayden administrasiyası və Samanta Pauerin rəhbərlik etdiyi dövrün bu təşkilatın fəaliyyət tarixində ən biabırçı dövr olacağına şübhə yeri qalmır.

#### USAID ölkəmizdə çirkin məqsədlərinə çata bilmədi

O da faktdır ki, USAID-in qeyri-qanuni fəaliyyəti indi ABŞ-nin timsalında qlobal səviyyədə etiraf olunsa da, Azərbaycan bu gerçəklərə çoxdan bələd olub və bunu hər zaman səsləndirib. USAID-in ölkəmizdə dağıdıcı fəaliyyətinin, "beşinci kolon" yaratmaq, yad dəyərləri cəmiyyətimizə sırımaq cəhdlərinin qarşısı qətiyyətlə alınıb.

Ötən ilin dekabrında "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyova müsahibəsində Prezident İlham Əliyev ölkədə qrantla qidalananların və qrant verənlərin özlərini ağa kimi apardıqları dövrü olduğunu, lakin bunun qarşısının alındığını bəyan etmişdi.

Dövlətimizin başçısı vurğulamışdı ki, yardım asılılıq yaratmamalıdır: "Ona görə də Bayden administrasiyası tarixdə, o cümlədən nə ilə yadda qalacaq? Bir çox məsələ, amma o cümlədən bir göstərici ilə. Bu, yaxadan asılmaqdır. Biz sizə kömək etmək istəyirik. Biz isə deyirik: sağ olun, ehtiyac yoxdur. Onlar təkid edirlər. Bax onların USAID adlı strukturu var. Yardım etmək istəyir, amma nədənsə bizə lazım olan məsələdə deyil".




Prezident İlham Əliyev onu da vurğulamışdı ki, zənnimcə, Tramp onu qadağan edə bilər.

Ölkəmizin başçısının bu sözlərinin üzərindən çox keçməmiş Tramp administrasiyası USAID-in qadağan olunması barədə qərar qəbul etdi. Elə bu faktın özü də Prezident İlham Əliyevin haqlı və düzgün mövqeyini, uzaqgörən siyasətini bir daha təsdiq etdi.

#### Bu quruma heç bir ehtiyac yoxdur

Xatırladaq ki, 2024-cü il iyulun 1-dən USAID de-yure Azərbaycanda fəaliyyət göstərmir. Bu ilin yanvarında sözügedən məsələ ilə bağlı jurnalistlərin sualını cavablandıran xarici işlər naziri Ceyhun Bayramov bildirib ki, USAID-in fəaliyyətinin dayandırılmasının vaxtı yetişmişdi: "Çünki biz danışıqlar zamanı gördük ki, ABŞ Azərbaycanın maraqlarını nəzərə almır və diktə ilə öz maraqlarından çıxış etməyə çalışır. USAID-in Azərbaycanda mövcudluğunun və təmsilçiliyinin davam etdirilməsinə ehtiyac yoxdur və fəaliyyətinin tam dayandırılmasının vaxtı yetişib".

USAID hər zaman Azərbaycana qarşı qərəzli mövqe sərgiləyib. Müxtəlif qrantlar ayırmaq və sair yollarla ölkəmizə sızaraq ələ aldığı media və QHT qurumları vasitəsilə Azərbaycanda qarışıqlıq salmaq, milli maraqlarımıza zərbə vurmaq kimi mənfur davranışlar göstərib, milli dəyərlərimizi hədəf alıb. Dünyada mənfi obraz kimi xatırlanan USAID-in rəhbəri Samanta Pauerin Ruben Vardanyandan 1 milyon ABŞ dolları məbləğində "mükafat" (əslində rüşvət) aldığı da məlumdur. O da məlumdur ki, USAID separatizmə hər zaman dəstək olub, eləcə də Ermənistanda revanşizmin qızışdırılmasında əli var.

#### "Rus Evi"nin fəaliyyətinə də xitam verildi

Azərbaycan nə USAID-in, nə də bu kimi mənfur fəaliyyətlə məşğul olan hansısa digər xarici qrup və dairələrin ölkəyə nüfuz etməsinə, daxili işlərimizə burunlarını soxmasına heç zaman imkan vermir.

Yeri gəlmişkən, fevralın 3-də ölkəmizdə Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi - "Rus Evi"nin fəaliyyətinə də xitam verilib və bu barədə Rusiya tərəfinə nota göndərilib.

Xarici İşlər Nazirliyi tərəfindən Rusiya Federasiyasının "Rossotrudniçestvo" agentliyinin Azərbaycan Respublikası ərazisində fəaliyyətinə xitam verilməsi ilə bağlı məsələyə aydınlıq gətirilib.

XİN mətbuat katibi Ayxan Hacızadənin bununla bağlı şərhində bildirir ki, "Rossotrudniçestvo"nun Azərbaycandakı nümayəndəliyi olan Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi - "Rus Evi"nin hüquqi şəxs qismində qeydiyyatının mövcud olmadığı və təşkilatın Azərbaycan qanunvericiliyini ciddi şəkildə pozduğu barədə Rusiya tərəfinə məlumat verib. 3 fevral 2025-ci il tarixində "Rus Evi"nin fəaliyyətinə xitam verilməsi barədə Rusiya tərəfinə nota göndərilib.

Göründüyü kimi, yardım və digər adlar altında ölkəmizdə qeyri-qanuni fəaliyyət göstərən bu kimi təşkilatların əsl simaları ifşa edilir və yumşaq ifadə etsək, onlara dərhal qapı göstərilir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## USAID hər zaman Ermənistana xüsusi münasibətilə fərqlənib

### Təşkilatın fəaliyyətinin dayandırılması təqdirəlayiqdir



**"ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) fəaliyyətində Ermənistana xüsusi münasibətilə fərqlənib. Təşkilat indiyədək bu ölkədə mandatına uyğun olmayan fəaliyyətlə məşğul olub".**

Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Pərvin Kərimzadə deyib. Deputat bildirib ki, ABŞ-nin yeni Prezidenti Donald Trampın məlum qərarından sonra USAID-in Ermənistandakı fəaliyyəti də dayandırılıb. Qurumun Ermənistan ofisi maliyyədən məhrum olub, bütün proqramların icrası dondurulub. USAID uzunmüddətli iqtisadi və sosial inkişafa yardım göstərmək adı ilə formalaşdırılıb. Qurumun ayrı-ayrı ölkələrdə müxtəlif proqramlarla əsasən kənd təsərrüfatına, ticarətə, qlobal səhiyyəyə, demokratiyanın inkişafına və humanitar məqsədlər üçün yardımlar ayırdığı iddia olunur. Əslində isə USAID yardım adı altında ayrı-ayrı ölkələrin daxili işlərinə aktiv şəkildə müdaxilə etmək, qeyri-sabit, çevriliş və xaos üçün münbit şərait yaratmağa çalışıb.

P.Kərimzadənin sözlərinə görə, USAID-nin rəhbərliyi Ermənistana xüsusi "diqqəti" ilə seçilib: "Azərbaycan öz torpaqlarını erməni işğalından azad etdikdən sonra bu "diqqət" daha da artmışdı. Qurumun rəhbəri Samanta Pauerin davamlı olaraq İrəvana səfərləri də bunu təsdiqləyir. Ötən ilin yayında ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyinin Ermənistana maliyyə yardımının həcmini iki dəfədən çox - 120 milyon dollardan 250 milyon dollara qədər artıracağı elan olunmuşdu. Guya bu vəsaitin "demokratik proseslər, regional əməkdaşlıq, fəlakət risklərinin idarə edilməsi, kibertəhlükəsizlik, ərzaq və enerji təhlükəsizliyi və s. kimi sahələrə yönəldiləcəyi" bildirilirdi. Qurumun rəhbərliyi daim torpaqlarını öz gücünə azad edən Azərbaycana qarşı əsassız ittihamlar irəli sürməkdən də çəkinmirdi".

Deputat qeyd edib ki, Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsindən sonra təşkilat rəhbərlərinin qərəzli mövqeyi bir sıra məqamları ortaya çıxardı. Yəni USAID Ermənistanın mövqeyini dəstəkləməklə, onun işğalçı siyasətini də dəstəkləyib. İndi qurumun fəaliyyətinin dayandırılması Ermənistana ciddi zərbə oldu, çünki xarici yardımlar hesabına yaşayan Ermənistan böyük maliyyə və siyasi dəstəyini itirdi. USAID-in vaxtilə respublikamızda müxtəlif adlar altında fəaliyyət göstərən təşkilatları, o cümlədən radikal müxalifəti maliyyələşdirməklə onların vasitəsilə Azərbaycan hökuməti əleyhinə qeyri-qanuni aksiyaların permanentliyini təmin etməyə çalışdığına dair təkzibolunmaz faktlar da var. Belə çirkin əməllərlə məşğul olan təşkilatın fəaliyyətinin dayandırılması təqdirəlayiq haldır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## 707 media, 6200 jurnalist və 279 QHT

### USAID-in indiyədək həyata keçirdiyi çirkin layihələrin ifşası dəhşətli faktları ortaya çıxarır

**ABŞ Prezidenti Donald Trampın qərarı ilə Beynəlxalq İnkişaf Agentliyinin (USAID) fəaliyyətinin fevralın 1-dən etibarən dayandırılması, bir çox qaranlıq məqamların üzərinə işıq salıb. Bir həftədir ki, USAID-in dünyanın müxtəlif ölkələrində həyata keçirdiyi çirkin oyunları, məkrli planları faktlar əsasında ortaya qoyulur və həqiqətlər dəhşətli məqamları üzə çıxarır.**

Son məlumatlara görə, USAID dünya üzrə 707 media, 6200 jurnalist və 279 jurnalistika sahəsində çalışan QHT maliyyələşdirib. Buradan da aydın olur ki, Azərbaycanda 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsindən başlayaraq bu günə kimi, həmçinin müharibə vaxtı, Laçın yolunda ekoloqların aksiyaları, COP29 dövründə beynəlxalq mediada aparılan çirkin kampaniyanın arxasında kim dururmuş.

Aparılan araşdırmaların hələ hansı biabırçılıqları üzə çıxaracağını indidən demək çətin olsa da, Bayden administrasiyası və Samanta Pauerin rəhbərlik etdiyi dövrün bu təşkilatın fəaliyyət tarixində ən biabırçı dövr olacağına şübhə yeri qalmır.

Ümumiyyətlə, USAID-in bağlanması Azərbaycanda və Gürcüstanda da nikbinliklə qarşılanır. Təbii ki, bu da təsadüfi deyil. Çünki bu riyakar təşkilat hər iki ölkədə qarşıdurmaların baş verməsinə çalışıb, bunun üçün pullar ayırıb, dönük insanları özünə cəlb edə bilib. Cənubi Qafqazda çirkin məqsədlərini həyata keçirmək üçün USAID bütün vasitələrə əl atıb.

Azərbaycan Prezidenti cənab İlham Əliyev hələ bir neçə ay bundan əvvəl bu təşkilatın yaramaz fəaliyyətini diqqətə çatdıraraq, onun məkrli məqsədlərə xidmət etdiyini göstərmişdir.

ABŞ Dövlət katibi Marko Rubio hazırda agentliyin administratoru vəzifəsini icra etdiyini açıqlayıb. O bildirib ki, Vaşinqtonda USAID-in mənzil-qərargahı bağlıdır, işçilərə elektron poçt vasitələri ilə evdə qalmalarına dair tapşırıq gəlib.

Bundan bir qədər əvvəl isə Tramp USAID rəhbərliyinin radikal dəlilərdən ibarət olduğunu və ABŞ-nin onlardan qurtulacağını bildirmişdi.

ABŞ-nin Hökumətin Effektivliyi Departamentinə rəhbərlik edən İlon Mask isə USAID-i COVID-19-un patogenləri də daxil olmaqla bioloji silahların hazırlanmasını maliyyələşdirməkdə ittiham edib. Mask USAID-i "cinayətkar təşkilat" adlandırıb.

Beynəlxalq İnkişaf Agentliyinin Administratoru vəzifəsinə Samanta Paueri təyin etmişdi. Hansı ki, Tramp andiçmə mərasimindən dərhal sonra onu bu vəzifədən uzaqlaşdırıb. Samanta Pauer cinayətkar Ruben Vardanyanla da əməkdaşlıq edib. Pauer vaxtilə Vardanyandan Avrora Mükafatının Seçki Komitəsinin daimi üzvü kimi, xeyli məbləğdə pul da alıb. Bu fonda Samanta Pauerin sonradan formalaşan ermənipərəst mövqeyinin, onların daimi dəstəkçisi olma səbəbi aydın olur.

Xatırladaq ki, bu yaxınlarda ABŞ-nin ermənipərəst senatoru Bob Menendez həbs edildi. Senatorun evinə baxış zamanı külli miqdarda nağd pul, dəbdəbəli avtomobillər və qızıl külçələr aşkar edilib. Hansı ki, bu şəxs erməni diasporundan aldığı külli miqdarda pullara görə Azərbaycana qarşı kəskin və qərəzli mövqe tuturdu. Samanta Pauerlə bağlı məsələ də bununla oxşarlıq təşkil edir. Samanta Pauerin rus casus Vardanyanla bu qədər yaxın əlaqəsi ağla başqa şübhələr də gətirir.

Digər mühüm məqam isə ondan ibarətdir ki, USAID korrupsiyada, yəni ehtiyacı olan ölkələrə və icmalara yardım proqramına yönəldilməli olan vəsaitlərin oğurlanmasında ittiham olunur.

Bütün fəaliyyəti dövründə USAID Azərbaycanda layihələrin maliyyələşdirilməsinə 450 milyon dollar xərcləyib. Həmin vəsaitin böyük bir hissəsi isə məhz ölkəmizdə təxribatların hazırlanmasına yönəlib. 50 milyard dollardan çox büdcəsi olan bu təşkilatın büdcəni nəyə xərclədiyi ilə bağlı ciddi şübhələr yaranıb.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*




## Üzqarası USAID

### Yaxud ziyanın yarısından qayıtmaq da xeyirdir

**Dünya ötən ilin payızında ABŞ-də keçirilən prezident seçkilərini diqqətlə izləyirdi. Co Baydenin, sonra onu əvəzləyən Kamala Harrisin ABŞ-yə və dünyaya nə vəd verəcəyi məlum idi, əsas diqqətçəkən Donald Trampın vədləri idi.**

D.Trampa marağın yüksək olması səbəbsiz deyildi. Çünki Co Bayden administrasiyasının apardığı siyasət qlobal iqtisadiyyata ciddi ziyan vurmuş, İkinci Dünya müharibəsindən sonra beynəlxalq müstəvidə formalaşmış bütün hüquqi dəyərləri dağıtmışdır. Demokratların apardığı siyasət rəqiblərini deyil, müttəfiqlərini də narazı salmışdır. Xüsusilə Rusiya-Ukrayna müharibəsi dünya iqtisadiyyatına, o cümlədən ABŞ-nin Avropadakı müttəfiqlərinə zərbə vurmaqla davam edirdi. Əminliklə demək olar ki, müharibədən Rusiya qədər ABŞ-nin Avropadakı müttəfiqləri də ziyan çəkirdi. Təsadüfi deyil ki, Avropada qitənin indiyədək belə çətin sosial-iqtisadi duruma düşmədiyini dilə gətirirlər. Ona görə də hamı D.Trampın gəlişi ilə bu gərginliyin azalacağını düşünürdü.

D.Tramp da seçkiöncəsi bütün görüşlərində seçicilərə səslənirdi ki, sizin yoxsul yaşamağınızın əsas səbəbi vergi şəklində ödədiyiniz vəsaitin Amerika xalqının ehtiyaclarına xərclənməməsidir. Ən çox vurğuladığı məsələ isə dövlət idarəetməsində olan korrupsiya idi. Onun məşhur iş adamı, həm də dünyanın ən varlı şəxsi olan İlon Maskı ABŞ Dövlət İdarəetməsinin Səmərəliliyi Departamentinə (DOGE) rəhbər təyin etməsi də bununla bağlıdır.

İndi Amerikada kartlar yenidən dağıdılır. Bu ölkədəki siyasi təhlilçilərin fikrincə, indiyədək hakimiyyətdə kök salmış bir çox korrupsiya cinayətlərinin üstü açıla bilər. Onlar qeyd edirlər ki, bu təkcə USAID-lə bitməyəcək. Hərbi sənaye kompleksi ilə Pentaqon arasında da bir çox şübhəli məqamlar var. Bununla belə, USAID-in dünyada həyata keçirdiyi pozucu əməlləri, korrupsiya və suveren dövlətlərin daxili işlərinə kobud şəkildə müdaxilə etməsi beynəlxalq aləmdə müzakirə olunan əsas məsələlərdir. Əvvəllər də USAID-in qanunsuz əməllərlə məşğul olması bəlli idi. Hətta bu barədə mətbuatda vaxtaşırı yazılar da dərc olunurdu. İndi isə bu işlə birbaşa Amerika dövləti məşğul olur və dəhşətli faktların üstü açılır.

İlon Maskın rəhbərlik etdiyi DOGE USAID-in məxfi sənədlərinə çıxış əldə edib. Maskın köməkçilərindən ibarət kiçik qrup Ronald Reyqan binasına gələrək agentliyin ofislərinə, o cümlədən məxfi məlumatların saxlanıldığı otağa girişin təmin edilməsini tələb edib. Yayılan məlumata görə, agentliyin ofisində qrupla binanın mühafizəçiləri arasında münaqişə yaranıb, onlar məxfi sənədlərin saxlanıldığı otağa girişə icazə vermək istəməyiblər. Ammas qrup binanın bir neçə mərtəbəsini gəzərək bəzi kabinetləri yoxlaya bilib. "Blomberg" Agentliyin məlumatına görə, gənclərdən biri Maska zəng edib və o, köməkçilərinin məxfi sənədlərə çıxış əldə etməyəcəyi halda binanın təhlükəsizlik işçilərini ABŞ marşal xidmətini cəlb etməklə hədələyib. Nəticədə departament əməkdaşları "axtardıqları bəzi şeylərə" çıxış əldə ediblər.

Hazırda ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) ləğvi prosesi gedir. Bu barədə İlon Mask "X" sosial şəbəkəsində paylaşım edib. "Biz USAID-in ləğvi prosesindəyik", - deyərək bildirib. O həmçinin vurğulayıb ki, USAID bərpa oluna bilməz: "Bu qurdlu alma deyil, sadəcə qurd topasıdır... Alma yoxdur, ona görə də hər şeydən xilas olmaq lazımdır". Prezident Donald Tramp isə USAID rəhbərliyində ifrat radikalların olduğunu bildirib və onların təşəbbüslərinin 90 gün ərzində dondurulması barədə qərar qəbul edib.

Bu təşkilatın nə qədər qərəzli olmasını bizə münasibətindən də aydın görmək mümkündür. Hələ Ermənistan tərəfindən torpaqlarımızın 20 faizi işğal ediləndə və ölkəmizdə 1 milyon qaçqın və məcburi köçkün olanda USAID işğalçı dövlətə yardım göstərirdi. Konkret fakt: ötən dövr ərzində USAID Ermənistana yarım milyard dollara yaxın yardım edib. Halbuki özünü "demokratiya və insan haqlarının müdafiəçisi" kimi təqdim edən təşkilat işğalçıya yardım göstərməməli idi.

Prezident İlham Əliyev dəfələrlə Qərbin bəzi strukturlarının başqa dövlətlərin daxili işlərinə müdaxilə etmələri hallarını pisləmişdir. Dövlət başçısı "Rossiya seqodnaya" Beynəlxalq İnformasiya Agentliyinə verdiyi müsahibəsində bu barədə demişdir: "Bəli, təbii ki. İkincisi, yardım asılılıq yaratmamalıdır. Ona görə də Bayden administrasiyası tarixdə, o cümlədən nə ilə yadda qalacaq? Bir çox məsələ, amma o cümlədən bir göstərici ilə. Bu, yaxadan asılmaqdır. Biz sizə kömək etmək istəyirik. Biz isə deyirik: sağ olun, ehtiyac yoxdur. Onlar təkid edirlər. Bax onların USAID adlı strukturu var. Yardım etmək istəyir, amma nədənsə bizə lazım olan məsələdə deyil". Prezident həmçinin uzaqgörənlik nümayiş etdirərək bildirmişdir ki, Tramp onu qadağan edə bilər.

Artıq dövlətimizin başçısının dediyi baş verdi - ABŞ-nin və dünyanın başına bəla olan bu üzdəniraq təşkilat ləğv edilir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# İqtisadiyyat və sosial həyat

## Sosial islahatların uğurları son bir ildə 120-dək beynəlxalq mükafat və sertifikata layiq görülüb

**Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq son illər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən aparılan islahatların nailiyyətləri ötən il daha 117 beynəlxalq mükafat və sertifikata layiq görülüb.**

Bu nailiyyətlərdən DOST konsepsiyası, sosial xidmətlərin elektronlaşdırılması və proaktiv xidmətlərin yaradılması, "e-sosial" internet portalı, "Əmək və Məşğulluq"" altsistemi və digər uğurlar beynəlxalq müsabiqələrdə mütəmadi olaraq qaliblər sırasında yer alıb.

Mötəbər beynəlxalq təşkilatlardan olan, 160-dan çox ölkənin 320-dən çox sosial təminat qurumunu birləşdirən Beynəlxalq Sosial Təminat Assosiasiyası isə təkcə son bir ildə nazirliyin qurumlarını 12 mükafatla təltif edib.

Eyni zamanda ötən il DOST Agentliyi Avropa Sosial Şəbəkəsinin "European Social Services Awards - 2024" müsabiqəsində uğur qazanaraq növbəti dəfə Avropa Sosial Xidmətlər Mükafatına layiq görülüb.

Ümumilikdə 2024-cü ildə DOST konsepsiyası və rəqəmsal sosial layihələrə görə 38, Dövlət Sosial Müdafiə Fondu üzrə 30, Dövlət Əmək Müfəttişliyi Xidməti üzrə 21, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi üzrə 10, Dövlət Məşğulluq Agentliyi üzrə 10 beynəlxalq mükafat və sertifikat əldə olunub.

Özünüməşğulluq proqramının genişləndirilməsində önəmli dəstək olan "Məşğulluğa Dəstək Layihəsi" isə Dünya Bankının yüksək mükafatı ilə təltif edilib.

Eləcə də Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya və Sosial Xidmətlər Agentliyinə ötən il daha 8 beynəlxalq ISO sertifikatı təqdim edilib.

Dövlət xidmətlərinin "ASAN xidmət indeksi" üzrə qiymətləndirilməsində isə nazirlik 2024-cü ildə növbəti dəfə 1-ci yeri tutub.




## Ötən il Naxçıvanda 4,3 milyon manat güzəştli kredit verilib

**2024-cü il ərzində Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən sahibkarlar 45 layihə üzrə Sahibkarlığın İnkişafı Fondunun (SİF) güzəştli kreditlərindən yararlanıblar.**

SİF-dən AZƏRTAC-a bildirilib ki, sahibkarların layihələrinin maliyyələşdirilməsinə SİF tərəfindən ümumilikdə 4,3 milyon manat güzəştli kredit ayrılıb.

Kreditdən yararlanmış sahibkarlıq subyektləri muxtar respublika ərazisində sənaye, turizm, kənd təsərrüfatı, akvakultura, ictimai iaşə kimi iqtisadiyyatın müxtəlif sahələri üzrə fəaliyyət göstərirlər. Layihələrin icrası nəticəsində 148 yeni iş yerinin yaradılması nəzərdə tutulub.

Qeyd edək ki, 2023-cü ilin fevral ayından etibarən İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun güzəştli kredit mexanizmi Naxçıvanda fəaliyyət göstərən sahibkarlıq subyektlərini də əhatə edir.

## SOCAR - "Tatneft" əməkdaşlığı

### Bu əməkdaşlıqdan başlanan əlaqələr enerji sektorunun digər sahələrini də əhatə edəcək

**Son illər Azərbaycan və Tatarıstan enerji sahəsində əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm addımlar atırlar. SOCAR-la (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) "Tatneft" Publik Səhmdar Cəmiyyəti (PSC) arasında başlanan işgüzar əlaqələr getdikcə enerji sektorunun digər sahələrinə də şaxələnir.**




Bu yaxınlarda Tatarıstan Respublikasının Baş nazirinin müavini, sənaye və ticarət naziri Oleq Korobçenkonun rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri də məhz bu məqsədə xidmət edirdi. Belə ki, Energetika naziri Pərviz Şahbazovun nümayəndə heyəti ilə görüşündə Azərbaycanla Tatarıstanın enerji şirkətləri arasında əməkdaşlığın cari vəziyyəti nəzərdən keçirilib. Neft və neft-kimya, təcrübə mübadiləsi, insan kapitalının inkişafı barədə söhbət gedib. Eləcə də elektrik enerjisi sahəsində yeni texnologiyaların tətbiqi ilə enerji obyektlərinin rəqəmsallaşdırılması, paylayıcı elektrik şəbəkələri obyektlərinin avtomatlaşdırılması, avadanlıqlar istehsalı kimi istiqamətlər üzrə əməkdaşlıq imkanları müzakirə edilib. Perspektivli layihələrlə bağlı fikir mübadiləsi aparılıb.

Söhbət zamanı bu səfərin və aparılan müzakirələrin ikitərəfli əlaqələrin, o cümlədən enerji əməkdaşlığının inkişafına təkan verəcəyi qeyd edilib. Qarşılıqlı faydalı tərəfdaşlığa dəstək ifadə olunub. Həmçinin Azərbaycan tərəfi bu ilin aprelində Kazanda keçiriləcək enerji və enerji səmərəliliyi üzrə Tatarıstan Beynəlxalq Forumunda iştiraka dəvət edilib.

Tatarıstanlı qonaqlarla SOCAR-ın prezidenti Rövşən Nəcəf də görüşüb. Söhbət zamanı SOCAR-la "Tatneft" arasında uğurlu əməkdaşlıqdan məmnunluq ifadə edilib, iki şirkət arasında birgə reallaşdırılan layihələrin önəmi qeyd olunub.

Görüşdə Tatarıstan nümayəndə heyətində təmsil olunan şirkətlərin fəaliyyət sahələrinə dair məlumatlar təqdim edilib. SOCAR-la Tatarıstan şirkətləri arasında əməkdaşlıq imkanlarına dair müzakirələr aparılıb.

Xatırladaq ki, keçən ilin mart ayında SOCAR-la "Tatneft" arasında neft-kimya sahəsində qarşılıqlı fəaliyyətə dair Saziş və neft yatağında birgə işlərə dair Anlaşma Memorandumu imzalanmışdı. Bu şirkətlərin rəhbərləri insan kapitalının inkişaf etdirilməsi, həmin istiqamət üzrə perspektiv birgə hədəflər barədə müzakirələr aparmışdılar. Bunun ardınca, may ayında isə SOCAR və "Tatneft" arasında əməkdaşlığa dair Yol Xəritəsi imzalanmışdı. Bu sənədlə şirkətlər arasında neft hasilatı, emalı, neft və neft-kimya məhsullarının satışı, təcrübə mübadiləsi, insan kapitalının inkişafı və digər sahələr üzrə əməkdaşlıq nəzərdə tutulur.

"SOCAR ilə bizim çox sıx əməkdaşlığımız var. Biz indi "Bibiheybət" yatağında işləri aparmağa hazırlaşırıq, burada SOCAR-dan olan həmkarlarımızla birlikdə mövcud texnologiyaların tətbiqi ilə məşğul olacağıq". O zaman "Tatneft"in rəhbəri Nail Maqanov Almetyevskdə keçirilən V Beynəlxalq Neft-Qaz Gənclər Forumunun iştirakçıları ilə neft şirkətlərinin ənənəvi "Bərabərhüquqlu dialoq" sammitində belə demişdi. Şirkətin rəhbəri nəzərə çatdırmışdı ki, "Bibiheybət" Azərbaycanın ən qədim yataqlarından biridir. Həmçinin əlavə etmişdi ki, "Tatneft" Türkiyədə də SOCAR ilə birgə işləyir və neft-kimyanın inkişafı və neft emalı zavodlarının yenidən qurulması sahəsində fəal iş aparır: "Biz həmkarlarımızla bu sahələr üzrə birgə işləməkdən məmnunluq duyuruq".

Qeyd edək ki, "Tatneft" Rusiyanın beynəlxalq aləmdə tanınmış və qəbul edilmiş neft şirkətlərindəndir. Bu nəhəng istehsalat kompleksində neft və qaz yataqlarının geoloji kəşfiyyatı və işlənməsi, karbohidrogenlərin hasilatı və emalı, maşınqayırma, neft kimyası, yanacaqdoldurma, şin buraxılışı sahələri birləşib. "Tatneft" eləcə də maliyyə (bank və sığorta) sektoru şirkətlərinin kapitalında iştirak edir.

Şirkət Rusiyanın bir çox ərazilərində neft-qaz yataqlarının öyrənilməsi, kəşfiyyatı və karbohidrogenlərin hasilatı ilə məşğul olsa da, əsas fəaliyyət məkanı Tatarıstandır. "Tatneft"in respublikada və onun hüdudlarından kənarda yataqların geoloji cəhətdən öyrənilməsi üçün çoxsaylı lisenziyaları var. Şirkət indiyədək "Yeni Yelxov", "Bavlin", "Boncyuk", "1 May", "Sabaçin" də daxil olmaqla 100-dən çox yataqda iş aparıb. Bununla belə, əsas ehtiyat mənbələri dünyanın ən böyük yataqlarından olan "Romaşkin"də yerləşir. Şirkət ümumi hasilatının böyük hissəsini bu yataqdan əldə edir.

Yataqlarının coğrafi cəhətdən bir-birinə yaxınlığı, özünün emal və generasiya qurğularının, neftin və digər məhsulların satışı üçün logistikasının olması şirkətin biznesinə müsbət təsir göstərir. Belə ki, "Tatneft" dünyanın onlarla ölkəsinə məhsul ixrac edir. Şirkətin neft emalı məhsulları Rusiyanın müxtəlif regionunda satılır. Şirkət neft-qaz hasilatının rentabelliyinin, istehsal həcmlərinin, emal məhsullarının satışının artırılması, əməliyyat xərclərinin azaldılması, sərmayələrin səmərəliliyinin yüksəldilməsi, idarəetmənin təkmilləşdirilməsi üçün daim yeni təşəbbüslər irəli sürür.

Sabit inkişafa və neft hasilatının getdikcə artmasına təkan verən həm də şirkətin böyük istehsalat təcrübəsi, müasir texnologiyalar və elmi-texniki potensialdır. Neft hasilatının biznes-planlaşdırılması, yataqların işlənməsi proseslərinin sürətləndirilməsi və iqtisadi cəhətdən daha səmərəli geoloji-texniki tədbirlərin həyata keçirilməsi üçün burada mövcud olan modellər əsasında modelləşdirmə mərkəzi yaradılıb.

Bir sözlə, "Tatneft"in fəaliyyəti çoxşaxəlidir. Qısaca desək, onun neft quyusundan başlanıb benzindoldurma məntəqəsində sona çatan fəaliyyət zənciri var.

Şirkət digər ölkələrdəki həmkarları ilə əməkdaşlığı getdikcə genişləndirir. 2019-cu ildə "Tatneft" Bakıda keçirilən ənənəvi Beynəlxalq Xəzər Neft və Qaz Sərgisində və Konfransında ilk dəfə iştirak etdi. O vaxt "Bakı-Ekspo" Mərkəzində adıçəkilən sərgi zamanı şirkətin nümayəndəsi qəzetimizə müsahibəsində demişdi: "Tatneft" əməkdaşlığa açıq şirkətdir. Bir sıra birgə layihələrimiz var və indi yeniləri üzərində də işləyirik. Türkmənistan, Özbəkistan, Qazaxıstan neftçiləri ilə sıx əlaqələrimiz var. Azərbaycanlı həmkarlarımızla da əməkdaşlığı inkişaf etdirmək niyyətindəyik. Açığı, bizi bu sərgiyə SOCAR dəvət edib. Biz SOCAR-ın nümayəndələri ilə Özbəkistanda keçirilən analoji sərgidə tanış olduq. Dəvəti də elə orada aldıq. Düşünürəm ki, əməkdaşlığımız çox faydalı olacaq. Çünki həm Azərbaycan, həm Tatarıstan neft-qaz sektorunda zəngin təcrübə qazanıb və bilgilərimizin mübadiləsindən hər iki tərəf bəhrələnəcək. Artıq bu sahədə müəyyən razılaşmalara gəlmişik və danışıqları davam etdiririk".

İndi bu səylər öz bəhrəsini verməyə başlayıb. Tatarıstan nümayəndə heyətinin bu ayın əvvəlində Bakıya sözügedən növbəti səfəri də bunu bir daha təsdiqlədi.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Türkmənistanda Azərbaycan məhsullarının onlayn satışı başlayıb

**Türkmənistanda "Made in Azerbaijan" brendi məhsullarının onlayn satışına başlayıb.**

Azərbaycanın Türkmənistandakı səfirliyindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan məhsulları Türkmənistandakı üç böyük onlayn platformada - "GiperTM", "Ynamdar" və "Ashgabat-Market"də satışa çıxarılıb.

Bu platformalar böyük bir istehlakçı auditoriyasına malik olduğu yerlərdir. İlkin olaraq, müxtəlif kateqoriyalarda məhsullar, o cümlədən çaylar, mürəbbələr, meyvə suları və digər konservləşdirilmiş qidalar təbii tərkibi və yüksək keyfiyyəti ilə alıcılara onlayn platformalarda təqdim edilir.

"Made in Azerbaijan" brendi məhsullarının Türkmənistan bazarında satışının onlayn formatda təqdim edilməsi onların daha geniş auditoriyaya çatmasına və daha çox müştəriyə əlçatan olmasına xidmət edir. Azərbaycanın istehsal etdiyi məhsullar təbii tərkibi və yüksək keyfiyyəti ilə türkmən alıcılarının diqqətini cəlb etməsinə imkan yaradır.

Satışda olan Azərbaycan məhsulları türkmən alıcıları tərəfindən keyfiyyət və qiymət baxımından rəğbətlə qarşılanır. Xüsusilə orqanik tərkibdə Azərbaycan çaylarının təbii qatqılarla zəngin olması istehlakçıların marağını daha çox cəlb edir.

## Azərbaycan neftinin qiyməti 77 dollara yaxınlaşır

**AZƏRTAC xəbər verir ki, dünya bazarında Azərbaycan nefti bahalaşıb.**

"Azeri Light" markalı neftin bir barelinin qiyməti 0,12 dollar və ya 0,16 faiz artaraq 76,92 dollar olub.

Xatırladaq ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

Ötən ilin uğurlu yekunları

## İstiqamət dəyişmir

### İxracda qeyri-neft məhsullarının çəkisi artır

**Hər bir ölkənin iqtisadi inkişafının əsas göstəricilərindən biri də onun ixrac potensialı ilə ölçülür. İxracın yüksək olması o deməkdir ki, ölkədə rəqabətə davamlı müxtəlif mal və məhsullar istehsal edilir. Bu isə həm də o ölkənin valyuta ehtiyatlarının artması və maliyyə sabitliyi deməkdir.**

Azərbaycan dünyada xarici ticarət əməliyyatlarında saldosu müsbət olan azsaylı ölkələr sırasındadır. Ölkəmiz ötən ilin 11 ayını xarici ticarətdə 5 milyard 270,3 milyon müsbət saldo ilə başa vurub. Dünya iqtisadiyyatının indiki durumunda, yəni baş verən mənfi tendensiyalar fonunda bu çox önəmli faktdır.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) ötən il üzrə "İxrac icmalı"na əsasən, il ərzində Azərbaycanın qeyri-neft-qaz məhsulları ixracının dəyəri 3,4 milyard dollar olub. Keçən il ölkə üzrə yeyinti məhsullarının ixracının dəyəri 11,3 faiz artaraq 1,03 milyard dollara çatıb. İl ərzində həmçinin şəkər və şəkərdən hazırlanan qənnadı məhsullarının ixracı 62,4, pambıq lifi - 45,2, bitki mənşəli yağlar və piylər - 32,8, qiymətli metallar - 29,2, kimya sənayesi məhsulları - 18,3, spirtli və spirtsiz içkilər - 14,3, çay - 1,6, qara metallar - 1,9, alüminium və ondan hazırlanan məmulatlar - 1 faiz artıb. Ümumiyyətlə, ölkə üzrə aqrar məhsullarının ixracında 2,8, aqrar-sənaye məhsullarının ixracında 57,3 faiz artım qeydə alınıb. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracının dəyəri 14,1 faiz artaraq 1,11 milyard dollar təşkil edib.

Hesabat dövründə ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı birinci, tomat (pomidor) ikinci, qızıl üçüncü olub. Rusiya Federasiyası, Türkiyə, Gürcüstan, İsveçrə, ABŞ isə qeyri-neft sektoruna aid mal ixracında əsas ticarət partnyorlarımızdır.

2024-cü il üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda bu şirkətlər təmsil olunublar: "MKT İstehsalat Kommersiya" MMC, "Silk Vey Vest Aviaşirkəti" MMC, "ASG Business Aviation" MMC, "Baku Steel Company" QSC, Süleymanova Göhər Süleyman qızı, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Tabaterra" QSC, "Khan-El" MMC, "Atena" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə ARDNŞ-nin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi başçılıq edib. Daha sonra siyahıda "SOCAR Polymer" MMC, "AzerGold" QSC, "Azəralüminium" MMC, "Azərenerji" ASC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, Naxçıvan MR Dövlət Energetika Xidməti, "Suraxanı Maşınqayırma zavodu" ASC, "Azəripək" MMC kimi şirkətlər yer alıblar.

Ötən il habelə "Azərkosmos" tərəfindən dünyanın 50 ölkəsinə 18,5 milyon dollar dəyərində peyk telekommunikasiya xidmətləri ixrac olunub. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 73 faizini təşkil edib. Dekabr ayında isə "Azərkosmos" dünyanın 40 ölkəsinə 1,6 milyon dollarlıq xidmət göstərib. İl ərzində "Azərkosmos"un peyk telekommunikasiya xidmətlərindən Birləşmiş Krallıq, Lüksemburq, BƏƏ, Pakistan və Türkiyə kimi ölkələr istifadə edib.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*




## KOBİA sahibkarları sahəvi görüşlərdə və maarifləndirici tədbirlərdə fəal iştiraka çağırır

**2024-cü ildə 3000-dən çox sahibkarın iştirakı ilə 120-dən artıq sahəvi görüş və maarifləndirici tədbir keçirilib.**

Sahibkarlıq fəaliyyəti ilə bağlı yeniliklər, dövlət dəstəyi mexanizmləri barədə biznes subyektlərinin məlumatlandırılması, çətinliklərinin və ehtiyaclarının öyrənilməsi məqsədilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı ilə müxtəlif mövzularda sahəvi görüşlər və maarifləndirmə tədbirləri təşkil olunur. Görüşlər Bakı şəhərində və ölkə regionlarında olmaqla onlayn və oflayn formatlarda keçirilir. Mikro, kiçik və orta biznes subyektləri agentlik tərəfindən mütəmadi olaraq təşkil olunan sahəvi görüşlərlə bağlı ətraflı məlumatı KOBİA-nın rəsmi internet səhifəsindən öyrənə, eyni zamanda maraqlandıqları mövzularda sahəvi görüşlərin və maarifləndirici tədbirlərin keçirilməsi üçün təkliflərini agentliyə təqdim edə bilərlər.

Aidiyyəti dövlət qurumlarının və biznes assosiasiyalarının nümayəndələrinin iştirakı ilə təşkil olunan görüş və maarifləndirici tədbirlərdə sahibkarlar mövcud dövlət dəstəyi alətləri, biznes sahəsində yeniliklər barədə məlumatlanlandırılır, onları narahat edən problemlər və onların həlli yolları müzakirə edilir, ehtiyacları və təklifləri dinlənilir, sahibkarları maraqlandıran suallar yerində birbaşa dövlət qurumlarının səlahiyyətli nümayəndələri tərəfindən cavablandırılır. Həmçinin sahəvi görüşlərdə sahibkarlar tərəfindən qaldırılan məsələlərin həlli üçün dövlət-sahibkar əməkdaşlığı platforması çərçivəsində müvafiq tədbirlər görülür, sahibkarların təklifləri ümumiləşdirilərək aidiyyəti üzrə təqdim edilir.

Qeyd edək ki, 2024-cü ildə KOBİA-nın təşkilatçılığı ilə Bakı şəhərində və bölgələrdə 121 sahəvi görüş və maarifləndirmə tədbiri keçirilib. Bu tədbirlərdə 3000-dən çox sahibkar iştirak edib. Görüşlər əsasən çayçılıq, üzümçülük, istixana, şərabçılıq, heyvandarlıq, quşçuluq, "yaşıl enerji", ekoturizm, nəqliyyat, logistika, ictimai-iaşə, ticarət, aqrobiznes, idxal-ixrac, reklam və digər fəaliyyət istiqamətlərini əhatə edib.

# REGİONLAR

## Şirvanda şəhid zabitin anım günü qeyd olunub



**Şirvanda şəhid baş leytenant Fuad Allahverdi oğlu Bağırovun anım günü qeyd olunub. Şəhərdəki Şəhidlər xiyabanında keçirilən mərasimdə şəhər rəhbərliyi, şəhid ailə üzvləri, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələri iştirak ediblər.**

Öncə tədbir iştirakçıları şəhidlərin məzarını ziyarət edərək önünə gül dəstələri düzüb, xatirələrini anıblar. Çıxış edən ŞİH-in başçısı İ.Abbasov şəhidin doğmalarına dərin hüznlə başsağlığı verərək səbir diləyib, Azərbaycan Ordusunun qüdrətindən, şəhidlərimizin göstərdikləri şücaət və vətənpərvərlikdən söz açıb, şəhidlik zirvəsinə ucalan igid Vətən övladlarının xatirəsinin xalqımızın qəlbində əbədi yaşayacağını vurğulayıb. O, şəhid və qazi ailələrinə dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan bəhs edərək, Şirvan şəhərində də hər bir şəhid ailəsinin və müharibə iştirakçısının probleminə həssaslıqla yanaşıldığını diqqətə çatdırıb.

Şəhidin ailə üzvləri onlara göstərilən yüksək diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

Qeyd edək ki, şəhid leytenant Fuad Bağırov "Kəlbəcərin azad olunmasına görə", eləcə də "Vətən uğrunda", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi", "Qüsursuz xidmətə görə" medalları ilə təltif olunub.

*"Azərbaycan"*

## Leysan və selin fəsadları aradan qaldırılır

**Fevralın 5-dən yağan yağışlar nəticəsində Lənkəran rayonunda bir sıra çaylar, o cümlədən Ləkərçayın sululuq səviyyəsi artıb, suötürücü kollektor və kanalların həcmi və ötürücülük qabiliyyəti texniki baxımdan sel sularının ötürülməsinə imkan vermədiyi üçün ətraf ərazilərdə subasma halları meydana gəlib.**

Rayonun yaşayış məntəqələrində ümumilikdə 505 evin həyətini və 10-a yaxın təsərrüfatı su basıb, 3 ailə (22 nəfər) təxliyə olunub.

Lənkəran rayon Fövqəladə Hallar Komissiyası tərəfindən aidiyyəti dövlət qurumları ilə birlikdə subasmanın fəsadlarının aradan qaldırılması ilə bağlı zəruri tədbirlər görülür. Lənkəran Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsi, Fövqəladə Hallar Nazirliyinin Cənub Regional Mərkəzi, Lənkəran Şəhər-Rayon Polis İdarəsi və xidmət sahələrinin əməkdaşlarının



birgə səyi nəticəsində subasmanın fəsadları aradan qaldırılıb, təxliyə olunmuş ailələr evlərinə qayıdıb, Şiləvar kənd qəbiristanlığından suyun çəkilməsi prosesi yekunlaşıb. Eyni zamanda rayon ərazisindəki bütün magistral, əsas və ara yollarda subasmanın fəsadları aradan qaldırılıb. Hazırda bir neçə fərdi yaşayış evinin həyətində qrunt sularının çəkilməsi işləri aparılır.

***S.CAVADOV,***
***"Azərbaycan"***

## Vaxtilə çətinlik üzündən Astaranı tərk edənlər indi geri dönürlər

### İnkişafın bundan real göstəricisi olarmı?!

### ◆ Ötən ilin uğurlu yekunları



**Astara ölkəmizin dilbər guşələrindən biridir. Dağları, dərələri, meşələri, çayları, bulaqları, subtropik meyvə bağları var bu diyarın. Mavigözlü Xəzər bu gözəlliyə başqa bir gözəllik də qataraq onu daha əsrarəngiz edir.**

Bu məkanda yaşayan insanlar isə uca Tanrının onlara bəxş etdiyi əvəzsiz nemətləri qorumaq, zənginləşdirmək üçün əllərindən gələni əsirgəmirlər. Elə buna görə də ölkəmizin Cənub qapısı sayılan Astara ildən-ilə inkişaf edir, yaşamaq üçün daha abad və rahat olur.

Bir neçə il əvvəl yazdığımız "Dünənin hara, bu günün hara, Astara" adlı məqalə yadımıza düşür. O yazıda rayonda aparılan quruculuq işlərindən, xüsusən şəhər boyu salınan dənizkənarı bulvardan geniş söhbət açmışdıq. Bizi buna sövq edən az vaxtda görülən çoxsaylı işlər idi. Bir ilin ərzində dənizin sahilindəki qamışlıqdan əsər-əlamət qalmamışdı. Onun yerində bənzərsiz bir istirahət parkı salınmışdı. Çəkinmədən bu parkı ən böyük şəhərlərin dənizkənarı parkları, bulvarları ilə müqayisə etmək olar. Bal kimi təmiz havalı bu məkanda uşaqların, gənclərin, yaşlıların istirahəti üçün hər bir şərait yaradılmışdır. Bulvarda qonaqlar və turistlər üçün mehmanxanalar, koteclər, kafe və restoranlar fəaliyyət göstərir.

*Səni tanımadım, varlı olacan.*
*Gör dünənin hara, bu günün hara!*
*Burda göz oxşayır hər tərəf, hər yan,*
*Mübarək dondasan indi, Astara.*

Astara bu gün də inkişafdan qalmır. 2024-cü ilin nəticələri belə deməyə əsas verir. Rayon iqtisadiyyatının əsas sahələri - sənaye, kənd təsərrüfatı, meşə, balıqçılıq, tikinti, ticarət, nəqliyyat və rabitə təsərrüfatı, habelə göstərilən digər xidmətlərin həcmi əvvəlki illə müqayisədə 5 faiz artıb. Ötən il 231,5 hektar çay plantasiyasından 667 ton yaşıl çay yarpağı toplanıb, 290 hektar çəltik sahəsindən 190,2 ton məhsul əldə edilib. Kənd təsərrüfatının digər sahələrində də uğurlu nəticələr qazanılıb.

Astara deyəndə ilk olaraq göz önünə sitrus meyvə bağları və çay plantasiyaları gəlir. Prezident İlham Əliyevin çayçılığın, çəltikçiliyin, sitrus meyvəçiliyinin inkişafına dair imzaladığı sərəncamlardan sonra rayonda innovativ üsullarla salınan sitrus və subtropik meyvə bağlarının həcmi 2 min 600 hektardan 4 min 564 hektara çatdırıldı. Keçən il həmin bağlardan ümumilikdə 67,8 min ton məhsul yığıldı, torpaq mülkiyyətçiləri və sahibkarlar yetişdirdikləri məhsulun satışından 60 milyon manatdan çox qazanc əldə etdilər. Son illər rayonda ekzotik meyvələrin əkilib-becərilməsinə də maraq xeyli artıb. Azərbaycanda, ümumiyyətlə, Cənubi Qafqazda ilk olaraq Astarada 42 hektarlıq belə bağ salınıb.

Astarada tikinti-quruculuq, abadlıq işləri də davam edib, təhsil, səhiyyə, mədəniyyət obyektlərinin tikintisi, əsaslı və cari təmiri diqqətdə saxlanılıb. Əhalinin, habelə qeyri-yaşayış sahələrinin, istehsal müəssisələrinin fasiləsiz olaraq elektrik enerjisi, təbii qaz, içməli su təminatını yaxşılaşdırmaq üçün bir sıra təxirəsalınmaz tədbirlər həyata keçirilib.

Yol iqtisadiyyatın, mədəniyyətin, bütövlükdə inkişafın başlıca göstəricisidir. Dağ kəndlərinə gedən yolların asfaltlaşdırılması, bəzi yollara çınqıl döşənməsi, yollar boyu çaylar üzərində yeni körpülərin salınması, köhnələrinin təmir edilməsi həmin ərazilərdə yaşayan əhalinin rayon mərkəzinə, buradan paytaxt Bakıya və digər yerlərə gediş-gəlişini xeyli asanlaşdırıb.

Bütün bunlar rayonda turizmin inkişafı üçün də geniş imkanlar yaradıb. Bu gün Astaraya gələn turistlərin sayı-hesabı yoxdur. Ən əsası Rusiyada, keçmiş SSRİ-nin digər respublikalarında yaşayan astaralılar bu abadlığı, şəraiti görüb öz doğma el-obalarına qayıdırlar. İnkişafın bundan real göstəricisi olarmı?!

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Heyvandarlıqla məşğul olan sahibkarların problemləri və təklifləri dinlənilmişdir

**Göygöldə rayon icra hakimiyyəti və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə rayonda fəaliyyət göstərən heyvandarlarla görüş keçirilmişdir.**

Görüşdə rayon icra hakimiyyəti başçısının müavini Arzu Qocayev, KOB dostu departamentinin Gəncə-Qazax regional koordinatorluğunun koordinatoru Anar Əliyev, Göygöl KOB dostu Orxan Əhmədov, AQTA-nın Gəncə-Daşkəsən Regional Bölməsinin, Dövlət Məşğulluq Agentliyi Gəncə filialının, Göygöl Dövlət Aqrar İnkişaf Mərkəzinin, Aqrar Sığorta Fondunun, Expressbankın nümayəndələri iştirak etmişlər.

Tədbiri giriş sözü ilə Arzu Qocayev açaraq rayonda kənd təsərrüfatının inkişafının daim prioritet məsələlərdən biri olduğunu, rayon iqtisadiyyatında kənd təsərrüfatının, xüsusilə də heyvandarlığın inkişaf etdirilməsinin əhəmiyyətini, eləcə də son illər bu sahədə əldə edilmiş uğurları diqqətə çatdırmışdır. Sonra Anar Əliyev çıxış edərək KOBİA-nın fəaliyyəti barədə iştirakçılara məlumat vermiş, sahibkarlığın inkişafı məqsədilə həyata keçirilən dövlət proqramlarının əhəmiyyətindən danışmışdır.

Görüşün sonunda sahibkarların problemləri və təklifləri dinlənilmiş, qaldırılan məsələlərin həlli istiqamətində müzakirələr aparılmışdır.

***S.YUNİSOĞLU,***
***"Azərbaycan"***

## Qazaxda "Gənclər həftəsi" çərçivəsində görüş keçirilmişdir

**Gənclər və İdman Nazirliyinin "Gənclər həftəsi" çərçivəsində keçirdiyi düşərgə görüşünün iştirakçıları Qazaxda olmuşlar.**



Düşərgə iştirakçıları bir həftə ərzində komanda quruculuğu, liderlik, fərdi inkişaf mövzularında təlimlər, intellektual yarışlar, hüquqi maarifləndirmə sessiyaları, musiqili gecələr və peşəkarlarla görüşlər keçirmişlər.

Düşərgədə Şəki, Zaqatala, Balakən, Qax, Oğuz, Qəbələ, Kürdəmir, Ucar, Göyçay, Zərdab, Ağdaş, Yevlax, Mingəçevirdən olmaqla ümumilikdə 93 nəfər gənc iştirak etmişdir.

Qazax Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə düşərgə iştirakçıları üçün rayonun görməli yerlərinə ekskursiya təşkil olunmuşdur. Ekskursiya zamanı "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğunun Damcılı və Göyəzən filialları, 44 günlük Vətən müharibəsi şəhidlərinin xatirəsinə yaradılmış "Qarabağ Azərbaycandır!" abidə kompleksi, Qazax rayon Heydər Əliyev Mərkəzi, Qazax Tarix-Diyarşünaslıq Muzeyi, Ədəbiyyat Muzeyi, "Fəxri qazaxlılar" parkı, Birinci Qarabağ və Vətən müharibəsi şəhidlərinin xatirəsinə yaradılmış Şəhidlər Xiyabanı, Qazax Müəllimlər Seminariyası, ADA Universiteti Qazax Mərkəzi haqqında iştirakçılara ətraflı məlumatlar verilmişdir.

Düşərgənin fəaliyyəti dövründə rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov və icra aparatının məsul işçiləri düşərgə iştirakçıları ilə görüşmüşlər. Görüşdə çıxış edən R.Babaşov qonaqlara rayonun tarixi, bu günü, tarixi şəxsiyyətləri, sosial-iqtisadi göstəriciləri, kənd təsərrüfatı, istehsal və sənaye müəssisələri, elm, təhsil, mədəniyyət, idman sahələrində əldə olunan nailiyyətlər haqqında məlumat vermişdir. Sonra Gənclər və İdman Nazirliyinin baş məsləhətçisi Mahmud Məmmədzadə çıxış edərək onlara göstərilən qonaqpərvərliyə və vaxt tapıb onlarla görüşə gəldiyinə, eləcə də düşərgənin yüksək səviyyədə təşkil olunmasında göstərilən dəstəyə görə rayon rəhbərliyinə razılığını ifadə etmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Gəncədə yeni müəssisə fəaliyyətə başlayıb



**Ölkədə, o cümlədən Gəncədə əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində çoxsaylı tədbirlər həyata keçirilir. Belə tədbirlər sırasında ən vacibi yeni müəssisələrin yaradılmasıdır.**

Bu günlər Gəncədə daha bir müəssisə fəaliyyətə başlayıb. Müasir avadanlıqlarla təchiz edilmiş müəssisə tum istehsalı ilə məşğul olur. Hazırda "ASC GROUP" adlanan müəssisədə 20-dən artıq adam çalışır. İstehsal olunan məhsullar "Bingo" adı ilə tezliklə yerli bazarlarda satışa çıxarılacaq. Türkiyə və Çindən gətirilən avadanlıqların quraşdırıldığı müəssisədə gündə 1,5 ton məhsul istehsal olunacaq.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

## Qırız kəndində 20 santimetr qar, 8 dərəcə şaxta qeydə alınıb

**Şimal bölgəsinə axşam saatlarından qar yağmaqda davam edir. Ən çox qar Quba rayonunun Qırız kəndinə yağıb. Kənddə qarın hündürlüyü 20 santimetrə çatır.**

Qubada yerləşən Şimal-Şərq Regional Hidrometeorologiya Mərkəzindən AZƏRTAC-a bildirilib ki, fevralın 6-dan başlayaraq Quba, Qusar və Xızı rayonlarının dağlıq ərazilərinə qar yağıb. Qusar şəhərində 3 santimer, Xızının Altıağac qəsəbəsində 9 santimer, Qubanın Xaltan kəndində isə 10 santimer qar qeydə alınıb. Qarın yağması ilə əlaqədar temperatur mənfi 8 dərəcəyədək düşüb. Ən aşağı temperatur Quba Qırız kəndinə qeydə alınıb.



## Ağsu və İsmayıllıda fermerlərə aqrar sığorta ödənişləri edilib

**Azərbaycanda dövlət dəstəyi ilə təqdim edilən aqrar sığortadan faydalanan fermer və təsərrüfatların sayı artmaqdadır.**

Aqrar Sığorta Fondu tərəfindən Ağsu və İsmayıllı rayonlarında müxtəlif hadisələr nəticəsində baş vermiş zərərlərə görə ödənişlər həyata keçirilib.

Ağsu rayonunun Kəndoba kəndində fermer Bəhruz Nəbiyevə arpa əkini sahəsinə dolu yağıntısı nəticəsində dəymiş zərərə görə 24 041 manat sığorta ödənişi edilib. Eyni zamanda rayonun Abasxanlı kəndində eyni səbəbdən buğda sahəsinə dəymiş zərərə görə fermer Rasim Məmmədov 2 297 manat sığorta ödənilib.

İsmayıllı rayonunda da təbiət hadisələrindən zərər çəkmiş sahələr üzrə sığorta ödənişləri davam edir. Rayonun Qubaxəlilli kəndində arpa sahəsinin bir hissəsi quşların hücumu nəticəsində



məhv olduğuna görə fermer Nurəddin Əsədova 3163 manat sığorta ödənişi edilib.

Qeyd edək ki, Azərbaycanda aqrar sığorta mexanizmi dövlət dəstəyi ilə həyata keçirilir. Meyvə bağları, əkin sahələri, iri və xırdabuynuzlu heyvanları sığortalamaq üçün Aqrar Sığorta Fondunun 1651 Çağrı Mərkəzinə və Fondun bölgələrdəki filiallarına müraciət etmək lazımdır.

Təklif olunan sığorta zərfləri, təminat verilən risklər barədə ətraflı məlumatı www.asf.gov.az rəsmi vebsaytından almaq olar.

## Gecə boyu və səhər yolların qar və buzdan təmizlənməsi işləri aparılıb

**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi hava şəraiti ilə əlaqədar olaraq gücləndirilmiş iş rejimində çalışmağa davam edir.**

Bölgələrdə agentliyin xidmət etdiyi yollara, xüsusi ilə daha tez qar tutan və buzlaşan yollara öncədən qar təmizləyən və duz-qum qarışığı səpən texnikalar çıxarılıb.

Gecə boyu və səhər saatlarında Yardımlı, Lerik, Qusar, Quba, Şamaxı və digər rayonlar üzrə bütün avtomobil yolları nəzarətdə saxlanılıb. Agentlik tərəfindən aparılan qabaqlayıcı tədbirlər nəticəsində problem müşahidə olunan ərazilərdə avtonəqliyyat vasitələrinin təhlükəsiz və fasiləsiz hərəkəti təmin olunub. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

Qeyri-sabit hava şəraiti ilə əlaqədar olaraq sürücülərdən, xüsusən dağlıq və dağətəyi ərazilərdən keçən avtomobil yollarında hərəkətdə olarkən ehtiyatlı olmaları, sürət həddinə əməl etmələri və meteoroloji amilləri nəzərə almaları xahiş olunur. Həmçinin idarə etdikləri nəqliyyat vasitələri üçün mövsümə uyğun şinlərdən istifadə etmələri tövsiyə olunur.





# Mədəniyyət





● Səhnə xadimləri

**Hər zamankı kimi oldu. Səhnəyə qədəm basdığı an zal canlandı. İnsanlar maraq və heyranlıqla onun oyununa tamaşa etməyə başladılar. Çünki böyük sənətkar Səməndər Rzayev səhnədəydi...**
**Heç birinin onun canındakı ağrılarından, ruhunun sıxıntılarından xəbəri yoxdu. Aktyorun da istədiyi elə bu idi. Səməndər Rzayev sevib-seçdiyi peşəsinin yalnız vurğunu deyildi, həm də ona sonsuz ehtiramla, məsuliyyətlə yanaşırdı, təəssübünü çəkirdi.**

# Böyük istedadın sönməz işığı

### Sənətə açılan qapı

Əsli Lahıcdan idi. Böyük Vətən müharibəsi dövründə ailəsi Ağsuya köçmüşdü. Səməndər Rzayev 1945-ci il yanvarın 2-də Ağsuda dünyaya gəldi. Qızı Rübabə Səməndər deyir: "Onun uşaqlıq illəri barədə bizə daha çox anam danışıb. Çünki atam qırx bir yaşında dünyasını dəyişəndə mənim on bir, qardaşımın on yaşı vardı. Atamla az ünsiyyətdə ola bildik..."

Ailənin sonbeşiyi olub Səməndər Rzayev. Nə qədər ki, atası Mənsim kişi yanlarındaydı, gün-güzəran dərdi çəkmirdilər. Rübabə xanım danışır: "Hərdən deyirlər ki, Səməndər Rzayev çox çətinliklə böyüyüb. Belə olmayıb. Əslində, babam Mənsim kişi imkanlı adam olub. Özünün dəyirmanı varmış. Ağsuda onu yaxşı tanıyırdılar. Mənsim kişi çox xeyirxah olub, bacardığı qədər ehtiyacı olanlara əl tutub. Sonralar brilyant alverinə başlayıb. Sibirdən brilyant gətirib satırmışlar. Sovet dövründə onlara "sexovşik" deyir, əməllərini qanunsuz hesab edir, özlərini də cəzalandırırdılar. Mənsim kişi də həbs olunub. Və elə həbsxanada da dünyasını dəyişib. Atamın onda on yeddi yaşı varmış".

O günədək də ağrı-acının nə olduğunu bilirdi. On üç yaşında dostları ilə oynadığı zaman yıxılıb ayağı sınandan sonra ömrünün ən qayğısız illəri dərman qoxulu xəstəxanalarda keçib. Səməndər Rzayevi müalicə üçün Mərdəkana sanatoriyaya gətiriblər. Xeyli müddət ayağı asılı vəziyyətdə qalıb. O günlərdə oxuduğu kitablar, bir də dinlədiyi radio tamaşaları və verilişləri həm ağrılarını, həm də ailəsindən, dostlarından ötrü darıxdığını az da olsa, unutdururmuş. Balaca radioqəbuledici onun üçün sanki böyük sənətə açılan qapı idi...

Tamaşaları xüsusilə səbirsizliklə gözləyirmiş. Aktyorlar Ələsgər Ələkbərovla Barat Şəkinskayanın səsləndirdikləri "Arxip baba və Lyonka" radiotamaşası ona böyük təsir edir. Həmin tamaşada Arxip baba rolunun ifaçısı Ələsgər Ələkbərovun səsinə vurulur. Aktyor olmaq qərarını da o vaxtlar verir. Lakin onda heç ağlına da gətirmirdi ki, vaxt gələcək onun səsinə, oyunlarına vurğun olacaqlar, neçə-neçə gənci aktyorluq sənətinə Səməndər Rzayevin ifasına olan heyranlıq gətirəcək...

Səməndər Rzayev dörd il Mərdəkanda sanatoriyada qalmalı oldu. Sonralar bir az yaxşılaşsa da, tam sağalmadı. Tək problemi zədəli ayağı deyildi. Xəstə yatağında ikən həkimlər ona dedilər ki, əgər kökəlməsən, ayaq sümüyün çürüyə bilər. Ondan sonra kökəlməyə başladı. Rübabə xanım təəssüflə bildirir: "Kökəlmək ona başqa problemlər yaratdı, bədənində qıcolmalar başladı. Saatlarla keçmirdi. Artıq çəkinin fəsadları tək bu da deyildi. Cavan olmağına baxmayaraq, canının ağrıları, bədəninin ağırlığı ona çox böyük əziyyət verirdi. Həkimə getməyi, dərman içməyi isə heç sevmirdi. Poliklinikada qeydiyyatı belə yox idi. Sanki həyatdan da küsmüşdü. Deyirdi ki, harda qırılar, qırılar".

On yeddi yaşınadək sanatoriyada qaldı. Orta məktəbi də orada bitirdi. Sənədlərini Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutuna (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) vermək niyyətindəydi. Həmin instituta qəbul imtahanları digər ali məktəblərdən tez keçirilirdi. Ona görə sənədlərini Teatr İnstitutuna verə bilmədi. Başqa bir təhsil ocağına üz tutdu. Qəbul imtahanlarından uğurla keçərək Azərbaycan Dövlət Universitetinin (hazırda Bakı Dövlət Universiteti) Filologiya fakültəsinə daxil oldu. Təhsil aldığı fakültə ona yad deyildi. Ədəbiyyatı çox sevir, dərindən bilirdi. Ancaq könlü, fikri, xəyalı başqa aləmdəydi. Bir gün özü-özünə dedi: "Mən aktyior olmaq istəyirəm. Bura mənim yerim deyil". Sənədlərini götürüb Ağsuya getdi. Onda artıq atasını həbs etmişdilər, əmlakları müsadirə olunmuşdu. Qızı danışır: "Növbəti ilin qəbul imtahanlarınadək Ağsuda qalmalı idi. Atam orada dram dərnəyi yaradır. Ancaq ailələrinə də kömək etməliydi. Atam üç qardaşın kiçiyi idi. Ondan böyük iki qaraşı olsa da, nədənsə, ailəsinə kömək etmək, evə qazanc gətirmək qayğısı atamın üzərinə düşüb. Onun yaxşı əl qabiliyyəti vardı. Həmin vaxtlar sifarişlə plakatlar da çəkib. Gənc idi. Hazırladığı plakatları gündüzlər divarlara yapışdırmağa utanırdı. Gecələr yapışdırırdı".





### Tələbə-aktyor...

Bir il Ağsuda qaldı. Növbəti il Bakıya döndü. 1964-cü ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun Dram və kino aktyorluğu fakültəsinə daxil oldu. Rza Təhmasibdən, Mehdi Məmmədovdan, Adil İsgəndərovdan dərs aldı. Elə tələbə ikən böyük sənətkarlar Səməndər Rzayevin fitri istedadını gördülər. Dördüncü kursda oxuyanda, 1968-ci ildə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının truppasına rejissor Tofiq Kazımovun dəvəti ilə qəbul edildi. İlk rolu Uilyam Şekspirin "Hamlet" tamaşasında Horatsio oldu. Ondan əvvəl Akademik Milli Dram Teatrının səhnəsinə "Sənsiz" tamaşasında Tərlan rolu ilə çıxmışdı. Amma o vaxt həmin rolu ifa edən aktyor xəstə olduğu üçün onu əvəz etmişdi.

Rübabə Səməndər xatırlayır: "Atam evdə məşq etmirdi. Onun çox güclü yaddaşı vardı. Bunu onunla söhbət edənlər dərhal anlaya bilərdilər. Çox kitab oxumuşdu, geniş məlumatı vardı. İstedadına gəlincə, o yalnız aktyor kimi məharətli deyildi. Səsi də çox gözəl idi. Evdə ariyalar oxuyurdu. Pianoda gözəl ifa edirdi. Onun, ümumiyyətlə, boş dayanmaqla arası yox idi. Harda olsa, bir də görürdün dəftərin, kağızın bir küncünə nəsə çəkirdi. Atamın çox maraqlı şarjları, həcvləri vardı". Rübabə Səməndərin dediyinə görə, Xalq artisti Mikayıl Mirzə Səməndər Rzayevin çəkdiyi rəsmləri haqqında yazacağı kitaba daxil etmək üçün ondan alıb. Ancaq Mikayıl Mirzənin evində baş verən yanğın zamanı şarjlar da məhv olub.

Səməndər Rzayev yumşaq təbiətli idi. Eyni zamanda olduqca prinsipialdı, fikrindən keçənləri çəkinmədən deyərdi. Bu, həcvlərində də əksini tapmışdı. Amma həmin həcvlər də it-bata düşdü.

Teatrda "Hamlet", "Yağışdan sonra", "Sən yanmasan", "Cehizsiz qız", "Qəribə oğlan", "Dəli yığıncağı", "Həyatın dibində" və başqa tamaşalarda oynadığı rolların hər biri onun istedadının, əməyinin və gərgin yaradıcılıq axtarışlarının bəhrəsi idi. Televiziya tamaşalarında da bir-birindən maraqlı rollar ifa etdi.

Çoxları hər bazar axşamı radioda səsləndirilən "Bulaq" verilişini məhz Səməndər Rzayevin bulaq kimi saf, şəffaf səsini dinləmək üçün gözləyirdi.

Teatr qədər kino sənətini də çox sevirdi. Səməndər Rzayev üçün rolun böyüyü, kiçiyi yox idi. İlk dəfə çəkildiyi "Uşaqlığın son gecəsi" filmindəki milisioner rolunun heç sözü yox idi. Sonralar "Çarvadarların izi ilə"də Səməndər, "Nəsimi"də Şirvanşah İbrahim, "Bəyin oğurlanması"nda Hidayət müəllim, "Babamın babasının babası"nda Əliquliyev və başqa rolları canlandırdı. Ona nədənsə filmlərdə daha çox epizodik rollar verirdilər. Halbuki Səməndər Rzayevin bacarığına, gücünə bələd idilər...

Bütün bunlara baxmayaraq, əlindən gələni edirdi. Qızı deyir ki, o, səhər evdən çıxırdı, axşam gəlirdi. Yorğun olurdu. Ailəsini dolandırmaq üçün çox işlər görürdü. Teatra, ordan radioya, çəkilişlər olanda televiziyaya gedirdi. Rübabə xanım söyləyir: "Mən balaca olanda atam Korlar Cəmiyyətində Aydın Qaradağlı ilə birlikdə kitablar belə səsləndirirdi. O, bütün günü ayaqüstə olurdu. Ayağında problem vardı. Ağrılar onu əldən salırdı. Üstəlik, teatrda dublyor vermirdilər. Guya ona hörmət edirdilər ki, dublyorun ola bilməz, sən əvəzolunmaz aktyorsan. Əslində, absurddur. Aktyorun bir gündə üç dəfə - səhər, günorta, axşam eyni tamaşada oynaması düzgün deyil. Elə şərait yaradırdılar ki, dəvət aldığı çox filmlərə çəkilmək üçün gedə bilmirdi.

Dünyanın malında, ad-sanında gözü yox idi. Ancaq istedadı və gördüyü işlər o qədər nəzərəçarpan idi ki, fəxri ad alanların siyahısında adının olmaması istər-istəməz ona toxunur, qəlbini incidirdi. Çünki hamı bilirdi ki, Xalq artisti adını almaq Səməndər Rzayevin haqqıdır. Buna görə də ruhdan düşürdü.

Qızı yada salır: "Fəxri adların siyahısından onun adının üstündən xətt çəkirdilər. Ehtiyacı böyük olduğu halda adını ev siyahısından pozurdular. Atama mənzili Ümummilli Lider Heydər Əliyev hədiyyə etmişdi. Atam o vaxt hələ institutu bitirməsə də artıq Akademik Milli Dram Teatrında işləyirdi. Bir gün tamaşaya gecikib. Çünki uzaqda kirayədə qalırdı. Atam baş rollardan birini oynayırdı. Ona görə tamaşaya başlaya bilməyiblər. Ulu Öndər Heydər Əliyev tamaşaya baxmağa gəlib. Görüb tamaşa gecikir. Soruşub ki, niyə başlamırsız? Cavab veriblər ki, bir cavan aktyor var, çox uzaqda yaşayır. Ümummilli Lider tamaşaya baxandan sonra səhnənin arxasına keçib, aktyorlarla görüşüb. Tamaşa haqqında xoş sözlər deyib. Atamın ifasını çox bəyənib. Heydər Əliyevin tapşırığı ilə atama "Gənclik" metrostansiyasının yaxınlığında ev verilib".

### Son tamaşa - "Həyatın dibində"

Sonralar Səməndər Rzayevə 9-cu mikrarayonda üçotaqlı ev verdilər: "İkicə il yaşadı o evdə... - aktyorun qızı danışır. - Ancaq axırda hər şey düzəlirdi. Tamam fəqrli olacaqdı atamın həyatı. Karyerasında çox böyük dəyişiklik baş verirdi. Bizə bağ evi, maşın verəcəkdilər. Üstəlik, teatra çox sevdiyi rejissor - Hüseynağa Atakişiyev gəlmişdi. Onunla çox böyük planlar qururdular. Atam onun səhnələşdirdiyi "Həyatın dibində" tamaşasında oynadı. Təəssüf ki, bu, ilk və son rolu oldu. Planlarını həyata keçirməyə ömür vəfa etmədi. Çünki sağlamlıq əldən getmişdi..."

"Həyatın dibində" tamaşasında səhnədə halı pisləşdi. Qızı xatırlayır: "Teatrdan evə gəldi. Mən onun səsini eşidib oyanmışdım. Anama dedi ki, bu gün işdə "çepe" baş verdi. Tamaşa vaxtı ayaqları şişibmiş, ciyərində də güclü problem vardı. Səhnədəki rola uyğun olaraq döşəmədə bir müddət uzanmalı olub. Vəziyyəti daha da ağırlaşsa da, rolunu sonadək ifa edib... Biz həmin günədək onun serroz olduğunu bilmirdik. Ondan sonra öyrəndik. Özü bir il imiş xəstəliyindən xəbərdar imiş. Rayonda qastrolda olanda həkim deyib ki, ciddi müalicə olunmasan, bir ilə öləcəksən. Bizə söyləmədi. Atamın xəstəliyi şəkər yox, serroz idi. Ciyəri çürüyürdü, şəkər xəstəliyindən müalicə edirdilər. Xəstəliyi şəkərlə daban-dabana zidd idi. Onu səhv müalicə etdilər".

Yanvarın 2-də evində ad gününü qeyd etdilər. Bir neçə gün sonra Səməndər Rzayev xəstəxanaya aparılır. Rübabə Səməndər qüssə içində xatırlayır: "Gediş elə o gediş oldu. Atam əvvəl "Eksperimental xəstəxana"da (Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi), sonra isə "Leçkomissiya"da (Mərkəzi Klinik Xəstəxana) müalicə olundu. Anam yanından ayrılmadı. Yaşamaq istəyirdi. Xəstəxanaya atamı görməyə gedən rejissor Ramiz Həsənoğluna deyib: "İndiyədək yaşadıqlarım elə bil qaralama idi. Mən yaşamaq istəyirəm".

Sadiq dostları ona görə çox narahat idilər. Həsən Əbluc, Telman Adıgözəlov həkimlər icazə vermədikləri üçün hündür hasarı aşıb xəstəxananın həyətinə keçir, Səməndər Rzayevi görməyə gedirdilər.

Əməkdar artist, Dövlət mükafatı laureatı Səməndər Rzayev 1986-cı il martın 27-də xəstəxanada dünyasını dəyişdi. Böyük aktyorun qızı o əbədi ayrılıq günlərini belə xatırlayır: "Qardaşımla mən anamın xalasıgildə qalırdıq. Ana babam gəldi. Bizə dedi ki, atanı gətiriblər. Vəfat etdiyini demədi. Biz evimizin həyətinə çatanda Mikayıl Mirzə babama dedi: "Allah rəhmət eləsin". Uşaq olsaq da, qardaşım da, mən də atamın vəziyyətinin ağır olduğunu bilirdik. Ancaq ümid edirdik. O anda ümidimiz öldü".

Aktyorluq sənəti ona xalqın sevgisini qazandırdı, şöhrət bəxş etdi, adını Azərbaycan incəsənətinin unudulmaz sənətkarları sırasına yazdı. Böyüklüyünə, kiçikliyinə baxmadan, heç bir fərq qoymadan istər teatrda, istərsə də kinoda öhdəsinə düşən rolları istedadına, adına layiq ifa etdi. O rolların ən kiçiyi belə Səməndər Rzayevin necə böyük aktyor olduğunu anladır.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Xalq artisti Tofiq Tağızadənin doğum günü qeyd olunub

**Kino sənətində ilk yaradıcılıq işində uğur qazanmaq hər rejissora nəsib olmur. Lakin onun ilk ekran əsəri "Görüş", həm də tamaşaçı auditoriyası ilə uğurlu bir görüş oldu və gənc rejissoru o vaxtdan bu sənətə bağladı.**



Azərbaycan və Özbəkistan pambıqçılarının dostluğundan bəhs edən filmi kino tariximizdə iki ölkənin aktyorlarının ilk müştərək ekran işi kimi olduqca qiymətlidir. Filmin quruluşunu isə gənc azərbaycanlı rejissor Tofiq Tağızadə verib. Onun debütü çox uğurlu alınıb və gənc rejissor ilk işində nəyə qadir olduğunu göstərə bilib. Şübhəsiz, "Görüş", "Uzaq sahillərdə", "Yeddi oğul istərəm", "Mən ki gözəl deyildim" filmlərinə baxmayan insan az tapılar. Bu filmlərin hər birinin öz süjeti var. Rejissorun mövzulara özünəməxsus yanaşma tərzi isə milli kinomuza yeni üslub və nəfəs gətirib.

Bu gün Azərbaycan kino sənətinin inkişafında böyük xidmətləri olan Xalq artisti, rejissor Tofiq Tağızadənin anadan olmasının 106-cı ildönümüdür. Onun adı çəkiləndə gözlərimiz qarşısında sevə-sevə seyr etdiyimiz bir çox filmlərdən maraqlı epizodlar canlanır.

O, 1919-cu ildə Bakı şəhərində anadan olub. Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun Kinorejissorluq fakültəsini bitirdikdən sonra C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasında fəaliyyətə başlayan Tofiq Tağızadə milli kino tarixinin yeni səhifələrini yazıb.

Ömrünün 40 ilə yaxın dövrünü kinoda keçirən Tofiq Tağızadə çəkdiyi filmlərdə özünü professional rejissor kimi təsdiq etməyi bacarıb. Bu filmlərin əksəriyyətinin tarixi yarım əsrdən artıq bir dövrü əhatə etsə də, mövzu və ideya baxımından bu gün də aktuallığını qoruyub saxlayır.

Görkəmli rejissorun "Görüş"dən sonra ərsəyə gətirdiyi "Uzaq sahillərdə", "Əsl dost", "Mateo Falkone", "Mən rəqs edəcəyəm", "Arşın mal alan", "Mən ki gözəl deyildim", "Yeddi oğul istərəm", "Qızıl qaz", "Dədə Qorqud", "Babamın babasının babası", "Bağ mövsümü" və digər kinofilmləri onun yaradıcılığında əsas yer tutur. Bu filmlərdə Azərbaycanın tarixi, mədəniyyəti, məişəti çox böyük sənətkarlıqla öz əksini tapıb.

Tofiq Tağızadə hər birimizin yaddaşında zamanın problemlərini ekrana gətirən və insanları bu aktual məsələlər ətrafında düşünməyə sövq edən görkəmli rejissor kimi qalıb. Rejissorun İmran Qasımov və Həsən Seyidbəylinin ssenarisi əsasında çəkdiyi məşhur "Uzaq sahillərdə" filmi bütün zamanlarda Azərbaycan tamaşaçılarının sevə-sevə baxdıqları ekran əsəridir. Bu ekran əsəri 1959-cu ildə Kiyevdə Ümumittifaq Kinofestivalında diploma layiq görülüb, dahi bəstəkar Qara Qarayevə isə filmin musiqisinə görə kinofestivalın ikinci mükafatı verilib.

Azərbaycan kino sənətinin görkəmli nümayəndəsi Tofiq Tağızadə ömrünün son illərində studiya da yaradıb. Lakin amansız əcəl onun işlərini yarımçıq qoyub. O, 1998-ci il avqustun 27-də dünyasını dəyişib.

# Lənkəran Diyarşünaslıq Muzeyinin binası da tarixdir

**Ötən ilin sonlarında 100 illiyi böyük təntənə ilə qeyd olunan Lənkəran Tarix-Diyarşünaslıq Muzeyi 1924-cü ildə yaradılıb. Muzeyin yerləşdiyi bina üç mərtəbə olmaqla 12 otaqdan ibarətdir. Yerli memarlıq abidəsi hesab olunan bu tikili ötən əsrin əvvəllərindən Cənub bölgəsində yaxşı tanınan Mirəhməd xanın sarayı olub.**







Xan evi kimi tanınan bu saray Mirmustafa xandan sonra hakimiyyətə gələn Mirhəsən xanın tək övladı Mirəhməd xanın öz sevimli həyat yoldaşı Tuğra xanımın (həm də əmisi qızı olub) şərəfinə inşa etdirdiyi binadır. Xan evinin inşasında istifadə olunan bütün tikinti materialları Bakıdan gəmi ilə gətirilib. Binanın fasadı mifoloji fiqurlarla bəzədilib. Binada hələ inqilabdan əvvəl ilk dəfə elektrik işıqlandırma və istilik sistemləri olub.

Bu cür sarayları özünəməxsus edən cəhətlərdən biri də daxildən şəhər ətrafına çıxan gizli yeraltı yolların olmasıdır. Bu yollar mümkün ola biləcək xalq üsyanları zamanı saray sahibinin və onun ailə üzvlərinin qaçıb salamat qala bilməsi üçün nəzərdə tutulurdu. Mirəhməd xanın evindən də indi mayak kimi tanıdığımız yerə qədər yeraltı yol hazırlanmış, muzey fəaliyyətə başlayanda həmin yol aşkarlanaraq qapadılsa da, mayak hələ də durur.

Muzeydə Lənkəranın qədim tarixini, mədəniyyətini, milli-mənəvi dəyərlərini və bu gününü əks etdirən eksponatlar nümayiş olunur. Əsas fondda 6500-dən çox eksponat mühafizə edilir. Muzeyin ekspozisiyası isə altı bölmədən ibarətdir: təbiət, qədim dövr, orta əsrlər tarixi, yeni dövr, ən yeni dövr (1917-1945-ci illər), müasir dövr (1945-ci ildən hazırkı dövrə qədər). Başqa sözlə bölmələr belə adlanır: daş abidələr, Lənkəran xanlıqlar dövründə, Lənkəranın mədəniyyəti, Lənkəranın arxeoloji tapıntıları, Lənkəranda elm və təhsilin inkişafı.

Bütün bölmələrdə nümayiş olunan eksponatlar öz dövrlərini əks etdirir. Eksponatlar xronoloji qaydada yığılıb. Burada etnoqrafiya, arxeologiya, xalq tətbiqi sənəti, numizmatikanı əks etdirən nümunələr və Lənkəranın görkəmli şəxsiyyətlərinin şəxsi sənədləri və digər eksponatlar göstərilir.

Uzun illər bu ünvanda fəaliyyət göstərən muzeyi daha da zənginləşdirmək və sahəsini genişləndirmək məqsədilə 1913-cü ilin sentyabrında bu tarixi binanın əsaslı təmirinə başlanılıb. Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən yenidənqurma və bərpa işləri aparılıb. 2015-ci ilin aprel ayında Prezident İlham Əliyev muzeydə yenidənqurma və bərpa işlərindən sonra yaradılan şəraitlə tanış olub.

Ölkəmizdə tarixi-mədəni irsin qorunmasında və təbliğində mühüm rol oynamış bu muzeyin 100 illiyi və "Xan evi" kimi tanınan binanın tikilməsinin 111 illiyi münasibətilə ötən ilin dekabrında "Vətən tarixi ədəbi əsərlərdə" adlı tədbir keçirilib.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

**ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!**

# Milli Qəhrəman Mübariz İbrahimovun xatirəsi yad olunub

**Fevralın 7-də Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun doğum günü ilə əlaqədar Azərbaycan Ordusunun bir qrup hərbi qulluqçusu şəhidimizin məzarını ziyarət edib, üzərinə gül dəstələri düzərək xatirəsini ehtiramla anıb.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində davam edən tədbirdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Mərasimdə çıxış edənlər xalqımızın tarixən öz qəhrəmanları ilə seçildiyini qeyd edərək, Mübariz İbrahimovun göstərdiyi şücaət və qəhrəmanlıqdan danışıblar. Milli Qəhrəmanın timsalında bütün şəhidlərimizin xatirəsinin xalqımızın yaddaşında daim əziz tutulacağı xüsusi vurğulanıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamına əsasən, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyünün qorunub saxlanılmasında müstəsna xidmətinə və göstərdiyi rəşadətə görə gizir Mübariz Ağakərim oğlu İbrahimova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verildiyi diqqətə çatdırılıb.

Daha sonra tədbir iştirakçılarına şəhidimizin həyat və döyüş yolundan bəhs edən videoçarx nümayiş olunub.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyəti tərəfindən şəhidlərimizin xatirəsinə həsr olunan, vətənpərvərliyi və qəhrəmanlığı tərənnüm edən musiqilər səsləndirilib.

OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

# Birinci Qarabağ müharibəsi şəhidləri dəfn ediliblər

Birinci Qarabağ müharibəsində itkin düşmüş sayılan və 31 ildən sonra kimliyi müəyyən edilən Məmmədov Tərlan Fikrət oğlunun nəşinin qalıqları Yevlaxda dəfn olunub.

AZƏRTAC xəbər verir ki, vida mərasimində Yevlax Şəhər İcra Hakimiyyətinin rəhbərliyi, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, şəhid ailələrinin üzvləri, qazilər, müharibə veteranları, ictimaiyyət nümayəndələri və rayon sakinləri iştirak ediblər.

Cənazə namazından sonra Tərlan Məmmədov Yevlax şəhər Şəhidlər xiyabanında dəfn olunub. Şəhidin ruhuna dualar oxunub, məzarının üzərinə əklil və gül dəstələri düzülüb. Dəfn zamanı hərbi orkestrin müşayiəti ilə Dövlət himni ifa olunub, yaylım atəşi açılıb.

Tabuta bükülmüş Azərbaycanın üçrəngli bayrağı şəhidin anasına təqdim edilib.

1975-ci ildə Yevlaxın Aran qəsəbəsində anadan olan Tərlan Məmmədov Birinci Qarabağ müharibəsində Füzuli rayonunun müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak edib. 1994-cü il yanvar ayının 10-da Aşağı Əbdürrəhmanlı kəndi istiqamətində itkin düşmüşdü.

* * *







Quliyev Müşfiq İbrahim oğlu Birinci Qarabağ müharibəsində könüllü olaraq Vətənin müdafiəsi üçün döyüşlərə qoşulmuşdu. Cəbrayılın Mahmudlu kəndi uğrunda gedən döyüşlər zamanı itkin düşmüşdü. 32 ildən sonra şəxsiyyəti dəqiqləşdirilən Müşfiq Quliyevin nəşinin qalıqları işğaldan azad olunan doğma yurdu Cəbrayılın Horovlu kəndində torpağa tapşırılıb.

AZƏRTAC xəbər verir ki, şəhid Müşfiq Quliyevin nəşinin qalıqları doğulub boya-başa çatdığı Horovlu kəndinə gətirilib.

Şəhidlə vida mərasimi təşkil olunub, cənazə namazı qılınıb, şəhidlərimizin ruhuna dualar oxunub.

Mərasimdə şəhidin ailə üzvləri ilə bərabər Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi nümayəndəliyinin, Cəbrayıl Rayon İcra Hakimiyyətinin rəsmiləri, hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər, müharibə iştirakçıları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Vida mərasimindən sonra şəhidin nəşinin qalıqları yaylım atəşinin müşayiəti ilə torpağa tapşırılıb. Şəhidin nəşinin büküldüyü üçrəngli Azərbaycan bayrağı qardaşına təqdim olunub.

Qeyd edək ki, Quliyev Müşfiq İbrahim oğlu 1971-ci ildə Cəbrayılın Horovlu kəndində dünyaya göz açıb. Orta məktəbi bitirdikdən sonra ali məktəbə qəbul olub. Müşfiq ali məktəbdən həm də leytenant rütbəsi ilə məzun olub. Hərbi komissarlığa müraciət edərək döyüşlərə yollanıb. Onun son döyüş yeri 1993-cü il oktyabrın 16-da Cəbrayılın Mahmudlu kəndi istiqamətində olub.

* * *

Tağıyev Elşən Qubad oğlu Birinci Qarabağ müharibəsində könüllü olaraq Vətənin müdafiəsi üçün döyüşlərə qoşulmuşdu. Füzuli rayonu uğrunda gedən döyüşlərdə itkin düşmüş sayılırdı. 31 ildən sonra şəxsiyyəti dəqiqləşdirilən Elşən Tağıyevin nəşinin qalıqları bu gün doğma yurdu Salyanda torpağa tapşırılıb.

AZƏRTAC xəbər verir ki, şəhid Elşən Tağıyevin nəşi Salyan sakinləri tərəfindən izdihamla qarşılanıb, doğulub boya-başa çatdığı və ailəsinin yaşadığı evə gətirilib.

Şəhidlə vida mərasimi təşkil olunub, cənazə namazı qılınıb, şəhidlərimizin ruhuna dualar oxunub.

Mərasimdə şəhidin ailə üzvləri ilə bərabər rayon icra hakimiyyətinin rəsmiləri, hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Vida mərasimindən sonra şəhidin nəşinin qalıqları dəfn üçün Salyanın Seyidsadıqlı kənd qəbiristanlığına gətirilərək, yaylım atəşinin müşayiəti ilə torpağa tapşırılıb. Şəhidin nəşinin büküldüyü üçrəngli Azərbaycan bayrağı qardaşına təqdim olunub.

Qeyd edək ki, Tağıyev Elşən Qubad oğlu 1971-ci ildə Salyanda dünyaya göz açıb. Birinci Qarabağ müharibəsi zamanı könüllü olaraq döyüşlərə qoşulub. 1994-cü ilin yanvarında Füzulinin Şükürbəyli kəndi ərazisində gedən döyüşlər zamanı itkin düşüb. Elşən Tağıyev naməlum şəhid kimi İmişlinin Şəmmədli kənd məzarlığında dəfn edilən şəhidlərimizdən biri olub. Onun şəxsiyyəti dəqiqləşdirilərək aidiyyəti üzrə təhvil verilib.

# Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasının yeddiilliyi münasibətilə tədbir keçirilib





**Tədbirdə Azərbaycan İlahiyyat İnstitutunun (Aİİ), Bakı İlahiyyat Kollecinin rəhbər heyəti və kollektivi iştirak edib. Aİİ rektoru, dosent Aqil Şirinov öncə kollektivin hər bir üzvünü ali təhsil müəssisəsinin yeddiilliyi münasibətilə təbrik edib.**

A.Şirinov Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət-din siyasətinin onun layiqli davamçısı - Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Rektor vurğulayıb ki, ölkəmizdə bütün sahələrdə olduğu kimi, din təhsili istiqamətində də dövlətin qayğısını görürük. Bunun bariz nümunəsi olaraq, 7 il bundan əvvəl cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutunun yaradılmısıdır.

A.Şirinov ötən 7 il ərzində institutun qarşısına qoyduğu hədəf və məqsədlərə nail olmaq üçün cidd-cəhdlə çalışdığını diqqətə çatdırıb. O qeyd edib ki, Aİİ dövlətçilik prinsiplərinə sadiq qalan, ölkəmizin dini mühitini nəzərə alan, milli-mənəvi dəyərlərlə dünyəvilik və müasirlik təfəkkürünü özündə birləşdirən ali təhsil müəssisəsidir. İnstitutun məzunları artıq ölkəmizin bir sıra bölgələrinin dövlət qurumlarında, eləcə də məscidlərimizdə imam, imam müavini və dini ayinlərin icraçısı vəzifələrində çalışırlar.

Rektor institutun əldə etdiyi nailiyyətlərdən bəhs edərkən bildirib ki, ali təhsil müəssisəsi yarandıqdan sonra onun apardığı tədris, təşkil etdiyi respublikadaxili və beynəlxalq elmi konfranslar, simpoziumlar, forumlar, eləcə də akademik heyətin din sahəsinə töhfə verən elmi araşdırmaları, xalqın dini baxımdan düzgün istiqamətdə maarifləndirilməsi prosesində yaxından iştirak etməsi Aİİ-nin Azərbaycan ictimaiyyətinin etimadını qazanmasına səbəb olub.

İnstitut rəhbəri bildirib ki, Azərbaycan İlahiyyat İnstitutu beynəlxalq əlaqələrin inkişafını daim diqqət mərkəzində saxlayır. Ötən 7 il ərzində xarici ölkələrin tanınmış 31 ali təhsil müəssisəsi və tədqiqat mərkəzləri ilə əməkdaşlıq protokolları və memorandumlar imzalanıb. Rektor qeyd edib ki, xarici universitetlərlə qurulmuş səmərəli əlaqələrin uğurlu nəticəsi olaraq, 2021-ci ildən başlayaraq Qazaxıstanda fəaliyyət göstərən "Nur-Mübarək" Misir İslam Mədəniyyəti və Türkiyənin İstanbul 29 Mayıs universitetləri ilə bağlanmış müqavilələrə əsasən, tələbələrimiz 4-cü ildir təhsillərini 1 semestr ərzində həmin universitetlərdə davam etdirirlər. Həmçinin 2023/2024 məzunu olan 2 tələbənin institutun əməkdaşlıq etdiyi Malayziya Beynəlxalq İslam Universitetində magistratura təhsili aldıqlarını vurğulayıb.

Rektor ötən 7 il ərzində institutun müəllimləri tərəfindən hazırlanmış və tələbələrin ixtiyarına verilmiş dərsliklərə də diqqət çəkib.

Aqil Şirinov ali təhsil müəssisəsinin elmi fəaliyyətini əks etdirən Din Araşdırmaları Jurnalının artıq ən son beynəlxalq standartlara cavab verən şəkildə məqalə qəbulu həyata keçirdiyini, beynəlxalq elmmetrik bazalarda qeydiyyatdan keçmək üçün işlər getdiyini nəzərə çatdırıb.

Aİİ rektoru sonda institutun fəaliyyətində göstərdikləri dəstəyə görə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə, o cümlədən ali məktəbin fəaliyyətində dəstək olan bütün qurumlara təşəkkürünü bildirib.

***"Azərbaycan"***

# Gənclər Ağstafaya toplaşdılar

**Ağstafada Azərbaycan Gənclərinin XI Forumu çərçivəsində zona tədbiri keçirilmişdir.**



Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov, Milli Məclisin deputatı Ülviyyə Ağayeva, Ağstafa, Gədəbəy, Şəmkir, Tovuz və Qazax rayonlarından olan gənclər və ictimaiyyət nümayəndələri iştirak etmişlər. Çıxış edənlər diqqətə çatdırmışlar ki, Ulu Öndər Heydər Əliyev həmişə gənclərə xüsusi diqqət və qayğı göstərmişdir. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva da gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində ardıcıl tədbirlər görürlər.

Tədbirdə bir qrup fəal gənc Agstafa Rayon İcra Hakimiyyətinin Fəxri fərmanları ilə təltif olunduqdan sonra mədəniyyət və incəsənət nümayəndələrinin çıxışları olmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3383
Sifariş 238

Qiyməti 60 qəpik